www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet 30 iyul 2014-cü il Çərşənbə № 190 (5899)   Qiyməti 40 qəpik

**Xəbər**

## Bayram məzuniyyətinə gəlmiş əsgəri maşın vurub öldürdü

yazısı səh.14-də

**Gündəm**

### Qərbin sanksiyaları Azərbaycanı da vurmağa başladı




Sanksiyalara məruz qalması gözlənilən VTB-nin ölkəmizdə törəmə bankı fəaliyyət göstərir

yazısı səh.8-də

### ABŞ səfirindən ATƏT-in Bakıdakı koordinatoruna sərt sözlər

yazısı səh.7-də

### Avropada yanan "yaşıl işıq": Haaqa Məhkəməsi

yazısı səh.15-də

### Ramazanın sonuncu gününün dartışması - Ay mübahisəsi

yazısı səh.6-da

### Jirinovskinin Azərbaycana münasibətini dəyişdirən səbəb

yazısı səh.4-də

### ABŞ konqresmenləri Bakı səfərinə görə tənqid hədəfinə çevrildilər

yazısı səh.4-də

### Sevinc Babayevanın oğlu mətbuatla münasibətlərini kəsir

yazısı səh.13-də

### "Rusiya elitası dəstə-dəstə ölkədən köç edir..."

yazısı səh.10-da

### Dünya mediasında hakimiyyət əleyhinə yazılar artıb

yazısı səh.13-də

### Müxalifət nə vaxt fəallaşacaq?

yazısı səh.3-də

*Ekmeleddin İhsanoğlu:*

### "Məndən soruşurlar ki, indiyə qədər hardaydın"

yazısı səh.10-da

### Diaspor lideri Orxan Zeynalovun 17 illik həbsindən danışdı

yazısı səh.13-də

## Qara kabus sərhədlərimizin bir addımlığında

# TÜRKİYƏ ÜZƏRİNDƏN AZƏRBAYCANA İŞİD TƏHLÜKƏSİ

İki qardaş ölkə arasına məzhəb ixtilafı salmaq istəyən məkrli qüvvələr fəallaşıb; İstanbulun neçə-neçə məscidi terrorçu qruplaşmanın nəzarəti altındadır, bu məscidlərdə aldadılmış azərbaycanlılar təlimdən sonra Suriyaya ölümə göndərilirlər; bir xəvaricdən şok təhdid: "İraqda şiələri çox yaxşı gəbərdirlər, Türkiyədə də başlansaydı..."

yazısı səh.9-da



Oleq Babayev

## Azərbaycanlı merin qətlindəki sirr pərdəsi

Oleq Babayevin qatilinin tapılması üçün mükafat təyin edildi; istintaq 4 versiya üzərində işləyir; Ukrayna prezidentinin şəxsi nəzarətə götürdüyü cinayət işi açılacaqmı?

yazısı səh.11-də



Fərəc Kərimli

### Həbsdəki müsavatçıya işgəncə verildiyi xəbəri yayıldı

yazısı səh.5-də



Qənirə Paşayeva

### Deputat atəş altındakı Əlibəylidəki son durumdan danışdı

yazısı səh.7-də



### Putinin Azərbaycanı da hədəfə alan yeni qorxunc planı

yazısı səh.9-da

YENİ MÜSAVAT
N 190 (5899) 30 iyul 2014



Hüseynbala Mirələmov

# Prokuror deputatın qardaşı oğluna cəza istəyəcək

**Bakı Ağır Cinayətlər Məhkəməsində 2012-ci il iyulun 17-də “1001 gecə” istirahət mərkəzində baş verən qanlı cinayətin məhkəmə araşdırması başa çatıb. Yada salaq ki, 2 il əvvəl həmin gün deputat Hüseynbala Mirələmovun qardaşı oğlu Rəşad Mirələmov əmisinə məxsus istirahət mərkəzində odlu silahdan açdığı atəşlə Ramal Bayramovu öldürüb, Səməd Mənsimovu isə yaralayıb. Bu qanlı olaydan bir neçə ay əvvəl isə R.Bayramova digər bir şəxs atəş açıb. Həmin vaxt R.Bayramov təsadüf nəticəsində sağ qalıb.**

Bu qalmaqallı iş üzrə ibtidai istintaq getdiyi zaman R.Bayramovun yaxınları prezidentə müraciət edərək F.Mirələmovla yanaşı Paşa Tofiq oğlu Paşayevin həbs olunmasını istəyiblər. Bidiriblər ki, yaxınlarının qətli sifarişli olub. İbtidai istintaq dövründə R.Mirələmovun psixi xəstə olması ilə bağlı sənədlər təqdim edilib. Lakin həmin sənədlərin saxta olması haqda rəy verilib. Məhkəmə istintaqı zamanı zərərçəkən tərəfin çoxsaylı vəsatətləri təmin olunmayıb. Ən müxtəlif səbəblərdən 2013-cü ilin aprelində başlanan məhkəmə prosesi hələ də sona çatmayıb. Qeyd etdiyimiz kimi, hakim Cavid Hüseynovun sədrliyi ilə keçirilən son prosesdə məhkəmə istintaqı yekunlaşıb. Prokuror çıxış etmək üçün məhkəmədən vaxt istəyib. Proses avqustun 5-nə təyin olunub. Prokuror həmin gün deputatın qardaşı oğlu Rəşad Mirələmova cəza istəyəcək.

Məhkəmə araşdırması zamanı R.Mirələmovun “Makarov” markalı tapança ilə Ramal Bayramovu qəsdən öldürdüyü, Səməd Mənsimov, Elmar Süleymanov və qeyrilərini öldürməyə cəhd etdiyi müəyyən olunub. O, Cinayət Məcəlləsinin 120.2.4, 120.2.5, 120.2.10, 120.2.11(qəsdən adam öldürmə), 29, 120.2.7(qəsdən adam öldürmə cəhd), 182.2.3, 182.2.4, 182.3.2, 182.3.3 (hədə-qorxu ilə tələb etmə) və 228.1-ci (qanunsuz olaraq silah əldə etmə və gəzdirmə) maddələri ilə ittiham edilir.

❑ **E.HÜSEYNOV**

# BQXK-nın avtomobili Ermənistan-Azərbaycan sərhədində atəş altına düşüb



**Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) İrəvan Nümayəndəliyinin avtomobili Ermənistan-Azərbaycan sərhədində atəş altına düşüb. APA-nın “news.am” saytına istinadən verdiyi məlumata görə, BQXK-nın İrəvan Nümayəndəliyinin kommunikasiya üzrə proqram rəhbəri Zara Amaturi bildirib ki, BQKX nümayəndələri Çinari qəsəbəsinin sakinlərinin xahişi ilə məhsul yığımı zamanı atəşkəsə əməl olunmasına yardım etmək üçün sərhəd zonasına gediblər.**

BQXK atəşkəsin hansı tərəfdən pozulduğuna dair açıqlama verməkdən çəkinib. Təşkilatın nümayəndəsi yalnız onu bildirib ki, atəş səsləri sərhədin hər iki tərəfindən eşidilib.

BQXK təmsilçiləri təhlükəli zonanı tərk ediblər.

# Müsavatçılar Orxan Əyyubzadənin ailəsini ziyarət ediblər

## Gənc fəala əfv ərizəsi yazmaq üçün təkliflər edilir

**İyulun 28-də Müsavat Partiyasının Divan üzvü Tural Abbaslı, başqan müşavirləri Əhəd Məmmədli, Rüfət Hacıbəyli və gənc fəallar siyasi məhbus Orxan Əyyubzadənin ailəsini ziyarət ediblər. Gənclər Orxan Əyyubzadənin ailəsini təbrik ediblər. Gənc fəalın valideynləri dəstəyə görə gənclərə təşəkkürlərini bildirib.**



Elə həmin günü Orxan Əyyubzadə ilə təcridxanada görüşən anası Rəhimə Məmmədova oğlunun sağlıq durumunun yerində olduğunu, saxlanma şəraitindən narazılıq etmədiyini bildirib. O, oğlunun istintaqının yekunlaşdığını və bu həftə məhkəməsinin başlayacağını da qeyd edib: “Dəstəyə görə hər birinizə təşəkkürümü bildirirəm. Oğlumun həbsini daim diqqətdə saxlayan bütün media orqanlarına, başda "Yeni Müsavat" və “Azadlıq” qəzetləri olmaqla, minnətdarlığımı çatdırıram. Heç kəs narahat olmasın. Orxanla təcridxanada görüşdüm. Hər kəsə salam söylədi. Artıq istintaqı yekunlaşıb. Qanunvericiliyimizə əsasən, məhbusun məhkəməsi olmursa, o, azad olunmalıdır. Amma övladım 5 gündür qanunsuz olaraq həbsdədir. Bunlar nə etdiklərini özləri də bilmirlər. Hakiminin adı belə məlumdur. Bu, Binəqədi Rayon Məhkəməsinin hakimi Rafiq Əliyevdir".

**Rəhimə Məmmədova dəfələrlə Orxana əfv ərizəsi yazması üçün təkliflər edildiyini bildirib:** “Hazırda Kürdəxanı da elə bir qəribə vəziyyət yaranıb ki, bütün siyasi məhbuslara əfv ərizəsi yazmaq üçün təkliflər edilir. Bu hal daha çox digər gənclərin prezidentə müraciət yazmasından sonra başlayıb. Bu müraciət oğluma da edilib. Hətta bildirilib ki, ərizə yazası olsa, məhkəmə zalından azad olunacaq. Amma Orxan qətiyyən ərizə yazmayacaq. Mən övladıma inanıram. Özü də bildirdi ki, heç zaman əfv yazmayacaq. Niyə də yazmalıdır? Cinayətkar, oğru, əxlaqsızlıq üstündə həbs edilməyib ki, bağışlanmağını xahiş etsin. Mən övladımla fəxr edirəm. Bu həftə məhkəməsi çox güman ki, başlayacaq. Hər kəsi məhkəmədə Orxana dəstək olmağa çağırıram. Çünki o, azadlıqda olanda bütün məhkəmələrdə iştirak edirdi”.

Gənc fəal təcridxanadan məktub göndərib. O, Azərbaycan xalqının bayramını təbrik edərək, hər kəsi möhkəm olmağa çağırıb.

**Orxan Əyyubzadənin vəkili Əsabəli Mustafayev hesab edir ki, bayram günləri ilə ələqədar məhkəmənin zamanı uzanır:** “Orxanın istintaq müddətinin bitməsindən iki gün ötüb. Ola bilsin ki, bayram günləri səbəbindən məhkəmə yubanır. Bu həftə məhkəmə başlaya da bilər. Amma ümidim yoxdur. Yaxın günlərdə onunla görüşəcəm. Məhkəməni müzakirə edəcəyik”.

Xatırladaq ki, Orxan Əyyubzadə bu il mayın 6-da NİDA-çılara oxunan hökmə etiraz etdiyinə görə həbs edilərək, 20 sutka inzibati həbs cəzası almışdı. Mayın 26-da cəza müddəti bitən gənc fəal azadlığa buraxılmamışdı. Onun barəsində Cinayət Məcəlləsinin 315.1 maddəsi ilə (hakimiyyət nümayəndəsinə müqavimət göstərmə) cinayət işi açılaraq, 1 aylıq həbs-qətimkan tədbiri seçilmişdi. İyunun 25-də isə həbs müddəti 1 ay da uzadılmışdı. Gənc fəala qarşı irəli sürülmüş maddə üzrə onu 1 ildən 3 ilədək həbs cəzası gözləyir.

❑ **Cavanşir ABBASLI**
**Foto müəllifindir**

# Bakıda yeni doğulmuş uşağını küçəyə atan ana saxlanılıb

**Bakıda küçədə yeni doğulmuş oğlan uşağı tapılıb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, hadisə Sabunçu rayonunun Albalılıq bağlar sahəsində qeydə alınıb. Sabunçu Rayon Polis İdarəsi 14-cü polis bölməsinin əməkdaşları tərəfindən tapılan yeni doğulmuş oğlan uşağı körpələr evinə təhvil verilib.**

Araşdırmalar zamanı uşağın anası, Bakı şəhər sakini Fatimə İsgəndərova müəyyən edilərək saxlanılıb.

# Füzuli rayon sakini Lerikdə çayda boğulub



**Lerik rayonunda bədbəxt hadisə baş verib. Lerik Rayon Polis Şöbəsinin (RPŞ) növbətçi hissəsindən APA-nın cənub bürosuna verilən məlumata görə, hadisə saat 16.30 radələrində Lənkəran-Lerik şossesinin 27-ci kilometrliyində qeydə alınıb. Füzuli rayonunun Şıxlı kənd sakini, 1990-cı il təvəllüdlü Şamxal Nuşirəvan oğlu Cəfərov “Xəzər” istirahət mərkəzinin yaxınlığından keçən çayda çimərkən boğulub. Onun cəsədi sudan çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.**

Ş.Cəfərovun Lerik rayonuna istirahətə gəldiyi bildirilir.

Faktla bağlı rayonun hüquq-mühafizə orqanlarında araşdırma aparılır.





# Azərbaycan Rusiyadan təlim-döyüş təyyarələri alacaq

**Rusiya Azərbaycana Yak-130 (NATO kodu "Mitten") təlim-döyüş təyyarələrinin ixracına hazırlaşır.**

Bu barədə APA-ya təyyarənin istehsalçısı olan "İrkut" şirkətindən məlumat verilib.

Rusiya tərəfi təyyarənin Azərbaycan Hərbi Hava Qüvvələri üçün təqdimatını keçirib.

Ötən il Rusiyada səfərdə olan Azərbaycanın hərbi pilotları təyyarədə uçuşlar həyata keçirib, texniki-taktiki göstəriciləri ilə yaxından tanış olublar.

"Bəzi prosedurlar həyata keçirilir. Düşünürük ki, Azərbaycan yaxın gələcəkdə Yak-130 istifadəçisi olan ölkələr siyahısında yer alacaq», - deyən şirkət nümayəndəsi Azərbaycanın konkret olaraq neçə təyyarə alacağını açıqlamayıb.

İkiyerli təlim-döyüş təyyarəsi olan Yak-130 “4++” və “5”-ci nəsil döyüş təyyarələrinin pilotlarının hazırlanması üçündür.

Təyyarənin silahlanmasında idarə olunan və olunmayan raketlər yer alır. Hazırda bu təyyarələr Rusiya, Belarus və Əlcəzairin silahlanmasında yer alır.

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli
və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33

“Elm” tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Müxalifət nə vaxt fəallaşacaq?

## Partiya yetkililəri seçki hazırlıqlarından danışdılar

**Azərbaycanda keçiriləcək növbəti bələdiyyə seçkilərinə az vaxt qalır. Seçkinin oktyabrın ortalarında elan ediləcəyini gözləmək olar. Ancaq ölkədə fəaliyyət göstərən müxalifət partiyalarının seçkilərə o qədər də fəal hazırlaşdığı hiss olunmur. Ancaq bununla belə, partiyalar seçki hazırlıqlarına başlayıblar.**





Müsavat Partiyasının bələdiyyə seçkiləri ilə bağlı yekun qərarı yoxdur. **Başqan müavini Gülağa Aslanlı** bildirir ki, məsələ Məclisdə müzakirə olub və rayon təşkilatlarına hansı bələdiyyələrdə iştirak edəcəklərini müəyyənləşdirmək, həmçinin müşahidəçilərin siyahılarını dəqiqləşdirmək məsələsi həvalə edilib: "Böyük ehtimalla Müsavat Partiyası bələdiyyə seçkilərində rayon təşkilatlarının arzusunu nəzərə alaraq bu məsələdə onlara sərbəstlik verəcək və seçkilərdə iştiraka hazırlaşmaq üçün tapşırıqları olacaq. Müsavat Partiyası hələ Məclisdə qərar verib ki, seçki qanunvericiliyində dəyişiklik olmayacaqsa, məhz bu cür saxlanılacaqsa, böyük şəhər bələdiyyələri müəyyənləşməyəcəksə, bələdiyyələrin statusları artırılmayacaqsa, bu cür seçkidə Müsavat Partiyası partiya olaraq iştirak etmək haqqında hələ qərar verməyib. Amma rayon təşkilatlarına iştirak etmək üçün şəraiti öyrənmək, komandaları yaratmaq, namizədləri müəyyənləşdirmək məsələsində sərbəstlik verir".

**G.Aslanlının sözlərinə görə, Müsavat rəhbərliyi hazırda durumu, ölkədəki vəziyyəti dəyərləndirir:** "Seçki qanunvericiliyinə edilməli olan vacib dəyişiklikləri aydınlaşdırır. Eyni zamanda seçki dairələrindəki vəziyyət müzakirə edilir, namizədlərin müəyyənləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılır. Əsas seçki qanunvericiliyinin dəyişdirilməsi mühüm olan, görülməli olan işlərdir. Təkliflər artıq bir neçə ildir var, yenilənir, hazırlanır. Zamanı çatanda həmin təkliflər təqdim olunacaq".

**KXCP-nin sədr müavini Xəzər Teyyublu isə bildirir ki, onlar 2014-cü ilin martından bələdiyyə seçkilərində iştirak qərarı veriblər:** "Partiya Ali Məclisinin sessiyasında bununla bağlı qərar qəbul olunub və bu istiqamətdə iş aparılır. Azərbaycanın demək olar ki, bütün bölgələrində zona müşavirələri keçirdik. Zona müşavirələrində bələdiyyə seçkilərində iştirak və hazırlıq vəziyyəti müzakirə olundu. Hazırda KXCP-nin mərkəzi seçki qərargahı təlimatını hazırlayıb və rayon şöbələrinə göndərib. Rayon şöbələrində hazırkı durum, hazırlıqla bağlı həm yerli, həm qəsəbə, kənd bələdiyyələrinin tərkibini müəyyənləşdirilib. Artıq bu proses keçirilib. Yaxın dövr üçün istəyirik ki, namizədlərimizi müəyyənləşdirək. Eyni zamanda bələdiyyələrin, yeni bələdiyyələrin saylari, ilkin seçici siyahılarının yoxlanması ilə bağlı rayon şöbələrimizə məlumatlar verilib. Partiyamızın bələdiyyələrə namizədlərinin müəyyənləşdirilməsi prosesi gedir. Onun üçün də qanunvericilikdə nəzərdə tutulan vaxt namizədlər dairə seçki komissiyalarına namizədliklərini verəcəklər".

**X.Teyyublunun sözlərinə görə, partiya rəhbərliyinin qərarına müvafiq şəkildə, işlər nizamla gedir:** "Müvafiq olaraq yerlərdə işimizi görürük. Bununla bağlı təlimata uyğun olaraq, namizədlərimizi müəyyənləşdirməyə çalışırıq. Qəsəbələrdə, kəndlərdə, Bakının özündə partiyamızın şöbələrindən müvafiq tələblərimiz var. Rayon şöbələrində seçkilərə hazırlıq istiqamətində işlərimiz davam edir. Rayonlara əməkdaşlarımız səfərbər olunur və vəziyyəti araşdırırıq. Seçkiyə hazırlığımız bacardığımız şəkildə davam etdirilir".

**O, müxalifət partiyalarına hakim partiya olan YAP tərəfindən səslənən tənqidi fikirlərə də münasibət bildirib:** "Təəssüflər olsun ki, hakim partiyanın müxalifət nümayəndələri vaxtaşırı müxalifətin zəif olması və bu seçkilərdə də uduzacağı barədə fikirlər səsləndirirlər. Bildirirlər ki, müxalifət qədər zəifdir, bu seçkidə də məğlub olacaq, fiaskoya uğrayacaq. Bu cür fikirlər hakim partiyanın onsuz da zəifləmiş müxalifətə olan təzyiqləridir. YAP-ın siyasi müxalifətə qarşı bu cür mövqe sərgiləməsini güzgün hesab etmirik".

**KXCP yetkilisinin sözlərinə görə, digər partiyalarla əməkdaşlıq etmək istisna deyil:** "Seçki elə bir prosesdir ki, siyasi partiya təkbaşına, bütünlüklə bələdiyyələri əhatə edə bilməz. Bir siyasi partiyanın namizədi güclü ola bilər, biz həmin güclünü müdafiə edə bilərik. Biz baxacağıq ki, hansı partiya seçki prosesinə qoşulacaq və biz onu dəyərləndirəcəyik. Əməkdaşlıq hər zaman mümkündür. Çalışacağıq ki, yerli bələdiyyələrdə konkret olaraq işləməyi bacaran, problemləri həll etmək gücündə olan namizədlər ortada olsun. İstəyirik ki, müxalifətin namizədi güclü olsun. Ümid edirəm ki, bu proseslərdən də uğurla çıxacağıq".

**Ümid Partiyası da hazırlıqlara başlayıb. Partiyanın təmsilçisi Taleh Əliyevin sözlərinə görə, 2014-cü ilin əvvəlindən proses başlayıb:** "Fevralda Ali Məclisin iclasında müvafiq qərar qəbul olunub. Martda bələdiyyə seçkilərinə namizədliklə bağlı Ümidin Respublika müşavirəsi keçirilib. Tədbirdə partiya üzvlərinin öhdəlikləri müəyyənləşdirilib, öhdəliklərin yerinə yetirilməsi, partiyanın seçkidə iştirakını təmin etmək məqsədilə mütəmadi olaraq rayon şöbələri ilə əlaqə saxlayırıq. Artıq yüzlərlə namizəd seçimi üzərində düşünürük. Sənədləşmə prosesi gedir. Avqustun əvvəlinə yerlərdə bələdiyyə seçkisi ilə bağlı görüşlər keçirilməsi planlaşdırılır. Seçki kampaniyası başlanana qədər namizədlərimizin siyahısını hazırlayıb seçki prosesinə tam hazır vəziyyətdə getməyi düşünürük. Bələdiyyə seçkilərinə hazırlıq prosesi proqrama uyğun davam etdirilir. Ayrı-ayrı regionlar üzrə məsul şəxslər Bakıya dəvət olunub və siyahılarda dəqiqləşdirmə aparılıb. Biz namizədliyini müəyyənləşdirdiyimiz şəxslərlə bağlı bir daha dəqiqləşdirmə aparırıq, onların sənədlərinin qovluğunu yığırıq, hazırlayırıq, dəqiqləşdiririk. Sentyabrın 1-ci yarısında partiya sədrinin regionlarda namizədlərlə ayrıca görüşü də nəzərdə tutulur. Partiya rəhbərliyinin seçki strategiyası nizamlı şəkildə yerinə yetirilir".

**ADP sədri Sərdar Cəlaloğlu da bildirir ki, onlar seçkilərə qatılmaq niyyətindədirlər: "ADP bələdiyyə seçkilərinə qatılacaq.** Öz üzvlərimizə bələdiyyə seçkilərində aktiv iştirakı tövsiyə etmişik. Yerlərdə üzvlər xüsusi maraq göstərməsə, biz partiya kimi seçkilərdə iştirak edə bilmərik. Ona görə çalışırıq ki, yerlərdə üzvlərimiz seçkiyə xüsusi maraq göstərsinlər. İyulun 29-da da Ümid Partiyasının sədri ilə bununla bağlı məsləhətləşməmiz oldu. Gələn ayın əvvəlində məsələni "Qarabağ" bloku çərçivəsində diqqətlə nəzərdən keçirəcəyik. Müzakirə edəcəyik ki, hansı dairələrdən kimlərin namizədliyini verə bilərik. Vaxt az qalır".

Qeyd edək ki, AXCP-nin isə bələdiyyə seçkilərində iştirak etmək barədə qərarı yoxdur. Ali Məclisin son sessiyasında bu məsələ müzakirə olunub, qərar vermək rayon şöbələrinin öhdəsinə buraxılıb.

❑ Röya RƏFİYEVA



# Qəzzanın bombalanması davam edir

## İran ali dini lideri bütün müsəlman ölkələrini Fələstini silahlandırmağa çağırdı



**İsrail ordusunun iyulun 7-dən etibarən Qəzza zolağına qarşı başlatdığı hücum əməliyyatları davam edir. Fələstin hökumətinin Səhiyyə Nazirliyinin məlumatına görə, ötən günlər ərzində İsrail ordusunun hücumları nəticəsində Qəzzada ölənlərin sayı 1130 nəfərə çatıb, 6550 nəfər isə yaralanıb. İsrail ordusu isə davam edən quru əməliyyatları zamanı 53 hərbçi itirdiyini etiraf edib.**

Ancaq ötən gün HƏMAS-ın hərbi qanadı olan "İzzədin əl-Qəssam" briqadası açıqlama yayaraq 110 nəfərdən artıq İsrail əsgəri öldürdüyünü və yüzlərlə əsgərin yaralandığını bildirib. Ötən gün İsrail ordusu Qəzza əməliyyatları zamanı daha 5 əsgər itirdiyini bəyan edib. Qeyd edək ki, İsrail ordusu iyulun 7-dən başlayaraq Qəzza zolağına qarşı "Qoruyucu xətt" adlı əməliyyatlara başlayıb. İyulun 17-də isə İsrail ordusu birləşmələri Qəzza zolağı ərazisinə quru əməliyyatları həyata keçirir. Davamlı olaraq Qəzzanı bombalayan İsrail ordusu bölgədə çoxlu sayda dinc insanın ölümünə səbəb olub. BMT-yə məxsus binalar da daxil olmaqla çoxlu sayda mülki binalar, məktəblər və xəstəxanalar bombalanıb. İsrail ordusu bir sıra hallarda bombaların "yanlış" olaraq yaşayış məskənlərinə düşdüyünü desə də, bir qayda olaraq yəhudi dövləti HƏMAS-ı günahlandıraraq, onların dinc əhalidən sipər kimi istifadə etdiklərini iddia edir.

Qeyd edək ki, İsrail ordusu Fitr bayramı günü də Qəzzanı bombalamaqda davam edib. Bu arada Ramazan ayının başa çatması münasibətilə Tehranda bayram namazı qıldıran İranın ali dini lideri Seyyid Əli Xameneyi müsəlman ölkələrinə çağırış edərək Fələstin xalqını müdafiə etməyə çağırıb. "Əl-Cəzirə" telekanalının məlumatına görə, iyulun 29-da Tehranda çıxışı zamanı Seyyid Əli Xameneyi ABŞ və Avropa ölkələrinin əsas hədəfinin Fələstin müqavimətinin gücünü zəifləmək olduğunu deyib. İran ali dini lideri müsəlman ölkələrini Fələstin müqavimət qruplarını silahlandırmağa çağırıb.

**İsraili sərt şəkildə tənqid edən dini lider sionist dövlətin dinc insanlara qarşı soyqırım törətdiyini bildirib:** "Bu quduz köpək, bu acgöz qurd günahsız insanlara hücum edir. İnsanlıq buna etiraz etməlidir. Bu bir soyqırım, tarixi bir fəlakətdir. İsrail gecə-gündüz günahsız insanları öldürür və bu insanlar özlərini müdafiə etməyə çalışırlar. İndi isə Avropa və Amerika fələstinlilərin silahlarını təhvil vermələrini istəyir ki, İsrail onları heç bir müqavimətə rast gəlmədən yox etsin. Hər kəs, kimin imkanı varsa, xüsusən də İslam dünyasında fələstinliləri silahlandırmaq üçün əlindən gələni etməlidir".

Qeyd edək ki, bütün atəşkəs cəhdlərinə baxmayaraq, İsrail hələ də Qəzzanı bombalamaqda davam edir. Ötən gün İsrailin atdığı bombalardan biri Qəzzada Türkiyənin "Anadolu" Agentliyinin yerli bölməsinin ofisinin yerləşdiyi binaya düşüb. Bayram günü davam edən bombardmanlar nəticəsində isə Şəfa adlı xəstəxanaya mərmi düşüb. Bombardman nəticəsində Qəzzada daha 10 dinc sakin öldürülüb.

❑ KƏNAN


Barak Obama


Angela Merkel

# Qərb dövlətləri Putinə qarşı ittifaq yaradır

## Toğrul İsmayıl: "İndi əsas məqsəd Putini danışıqlara məcbur etməkdir"

**Qərb ölkələrinin Rusiyaya qarşı sanksiyalar günü-gündən sərtləşir. AzadlıqRadiosunun yaydığı məlumatda qeyd olunur ki, ABŞ, Britaniya, Fransa, Almaniya, İtaliya liderləri iyulun 28-də telefonla danışıblar və Rusiyanın Ukraynadakı roluna görə Rusiyaya qarşı yeni sanksiyaların tətbiqinə razılaşıblar.**

Avropa Birliyi ölkələrinin səfirləri Brüsseldə toplaşaraq Rusiyaya qarşı yeni sanksiyaları müzakirə etməyi planlaşdırıblar. Rusiyanın maliyyə, enerji, müdafiə sektorlarının hədəfə alınacağı gözlənilir. Rusiya banklarının maliyyə bazarlarına çıxışı məhdudlaşdırılacaq, enerji sahəsində sazişlərin bağlanmasına məhdudiyyət qoyulacaq, silah satışına və ikili məqsədli, yəni hərbi və mülki məqsədli məhsulların satışına embarqo tətbiq ediləcək. Gələn məlumatlara əsasən daha 8 şəxsin və 3 şirkətin adı sanksiyalar siyahısına salınmalıdır.

Qeyd edək ki, Ukraynada vəziyyətin gərginləşməsi, separatçı qüvvələrin mərkəzi hökumətə qarşı silahlı əməliyyatlara başlaması Rusiya ilə Qərb arasında münasibətləri gərginləşdirib. Qərb ölkələri, xüsusən də ABŞ Krımı ilhaq edən və Ukraynanın şərq vilayətlərində separatçı qüvvələri dəstəkləyən Putin hakimiyyətinə qarşı sanksiyalar tətbiq edib. Rusiyadan böyük ölçüdə maye qaz alan və geniş ticarət əlaqələrinə malik olan Avropanın bir sıra ölkələri Moskvaya qarşı iqtisadi sanksiyalara soyuq yanaşsalar da, iki həftə əvvəl Malayziya təyyarəsinin Ukrayna səmasında separatçılar tərəfindən vurulmasından sonra situasiya Rusiyanın ziyanına dəyişib. Rusiya hakimiyyətinin, eyni zamanda bir sıra oliqarxların separatçıları dəstəkləməsi və silahlandırması ilə bağlı xəbərlər Avropa hökumətlərini Moskvaya qarşı qaldırıb.

**Ankara İqtisadiyyat və Texnologiyalar Universitetinin professoru, politoloq Toğrul İsmayıl "Yeni Müsavat"a açıqlamasında bildirib ki, Ukrayna böhranının dərinləşməsi və Malayziya təyyarəsinin vurulmasından sonra Avropada Rusiyaya münasibət daha da pisləşib:** "Əslində Ukrayna böhranı son olaraq Malayziya təyyarəsinin vurulması ilə yeni mərhələyə keçdi. Rusiya tərəfi inkar etsə də, ABŞ və AB təyyarənin rusiyameylli qruplar tərəfindən vurulmasını iddia edir. İndi Avropada yeni məsələ ortaya çıxıb ki, bu cür qruplar qaldıqca onların dinc insanlar üçün təhlükəsi artacaq. Hələlik araşdırma davam etsə də, sanksiyaların şiddətlənəcəyi gözlənilir. Əgər ekspertiza bunu təsdiqləsə, sanksiyalar daha da güclənəcək. Artıq Yaponiya sanksiyalara qoşulub. Yəni Rusiyaya qarşı cəza sanksiyaların sayı artır və miqyası böyüyür".

**Toğrul İsmayıl deyir ki, Qərbin Rusiyaya qarşı sanksiyaları bu ölkələrinin iqtisadiyyatının tamamilə çökdürülməsini hədəfləmir. Ekspertə görə, bu, Avropa ölkələri üçün də ziyanlı ola bilər. Onun fikrincə, hazırda iqtisadi sanksiyalar əsasən Rusiya hakimiyyəti daxilində parçalanma yaranmasını və Putinin Ukrayna planlarından əl çəkməsinə hesablanıb:** "Əlbəttə, bu sanksiyaların nəticəsi çox ağır olmaya bilər. Çünki Rusiyanı tamamən çökdürmək istəmirlər. Əgər bu baş versə, Avropaya baha başa gələr. İndi əsas məqsəd Putini danışıqlara məcbur etməkdir".

**Bəs bu sanksiyalar məqsədə çatmaq üçün kifayət edəcəkmi? T.İsmayıl deyir ki, Moskvanın narahatlığı bunu deməyə əsas verir:** "Rusiya XİN sanksiyalara sərt reaksiya verir. Bu onu göstərir ki, sanksiyaların təsiri var. Məsələn, son olaraq Yaponiyaya sərt təpki verdi. O biri tərəfdən Rusiyada içəridən narazılıq artacaq. Ancaq hələlik Putinin reytinqi çox yüksəkdir. Martda keçirilən sosial sorğular göstərir ki, daxildə Putinə münasibət yaxşıdır.

Məsələ burasındadır ki, sovetlərdən sonra Rusiya ilk dəfə məhz indi, yəni Putinin zamanında dirçələrək torpaq qazanıb. Krımın işğalı rus millətçiləri üçün yeni situasiyadır. Və Putinin reytinqinə təsir edir. Çünki bildiyimiz kimi, Putin hər zaman daxili auditoriya ilə yaxşı işləməyi, təbliğat qurmağı bacarıb. Amma bu o demək deyil ki, belə davam edəcək. Qərbin Rusiyaya qarşı sanksiyaları özünü birdən-birə deyil, yavaş-yavaş göstərir. Ehtimal olunur ki, sanksiyalar Putinin yaxın ətrafını parçalamağa hesablanıb. Amma bu daha çox Qərbin mövqeyindən asılıdır, məsələn daha əvvəl Almaniya tərəddüdlü görünsə də Ukrayna ərazisində Malayziya təyyarəsinin vurulmasından sonra artıq Almaniya hökuməti də sanksiyalara qoşulub".

❑ KƏNAN

# ABŞ konqresmenləri Bakı səfərinə görə tənqid hədəfinə çevrildilər

**Texasın "Houston Chronicle" ("Hyuston Xronikası") qəzeti ABŞ qanunvericilərinin lobbiçilərin maliyyə vəsaitləri hesabına Bakıya səyahət etməsini sərt tənqid edən araşdırma dərc edib. 10 Konqres üzvünün və onların 35 köməkçisinin Azərbaycan paytaxtına səfərini incələyən Vil Taker və Liz Olson baş verənlərdə mümkün qanun pozuntularının qeydə alındığını vurğulayır.**

Söhbət 2013-cü ilin may ayında Heydər Əliyev Mərkəzində təşkil olunan, sabiq senator Riçard Luqarın da qatıldığı konfransdan gedir. Müəlliflər yazırlar ki, səfərin təşkilinin məqsədi ABŞ qanunvericilərinə çıxış əldə etmək və konkret olaraq "Şahdəniz" layihəsini İrana qarşı ABŞ sanksiyalarından istisna etmək idi.

"Bakıya səfərdən iki ay sonra, səsverməyə bir gün qalmış Konqresdə sanksiyalarla bağlı təqdim olunan qanun layihəsində "Şahdəniz"i istisna edən müddəa peyda oldu və səsvermədən keçdi. Bu, son anda baş verən dəyişikliyə kimin sponsorluq etdiyi aydın deyil", - deyə yazıda bildirilir.



Azərbaycan Dövlət Neft Şirkəti öz məhsullarını dünya bazarına çıxarmaq üçün amerikalı müttəfiqlər qazanmaqdan ötrü Vaşinqtonda çoxlu pul xərcləyir. "Houston Chronicle" qəzeti əməkdaşlarının topladığı dəlillər göstərir ki, Bakıda təşkil olunan "ABŞ-Azərbaycan: gələcək üçün baxış" başlıqlı konfransda lobbiçilər və enerji şirkətləri fəal iştirak ediblər. ABŞ-dakı türk təşkilatlarının hesabına Bakıya yollanan konqresmenlərdən dördü öz həyat yoldaşlarını, yaxud nişanlılarını özləri ilə aparıblar.

Qəzetin yazdığından belə məlum olur ki, ABŞ konqresmenlərinin Bakıya səfərini təşkil etmək üçün Hyuston, Çikaqo, Atlanta, Vaşinqton və Nyu York şəhərlərində yerləşən və Türkiyə ilə bağlı fəaliyyət göstərən beş qurumdan vasitəçi qismində istifadə olunub.

"Bakıya getmiş qanunvericilər və gəlirsiz təşkilat nümayəndələri korporativ sponsorlar haqda məlumat verməli idilər", - deyə sənədləri nəzərdən keçirən Konqres etikası üzrə ekspert Ken Boehm bildirir.

Qalmaqalda adları hallanan ABŞ qanunvericilərinin bəziləri - Stiv Stokman və Şeyla Lee Cackson qəzetin sorğularına cavab verməkdən imtina edib. Ted Poe və Mişel Lujan Qrişamın ofisləri isə onların Azərbaycanda hansısa lobbiçilik fəaliyyətinə cəlb olunmadıqlarını bildirir (amerikanınsesi.org).

# Jirinovskinin Azərbaycana münasibətini dəyişdirən səbəb

## Natiq Miri: "Azərbaycan ictimai rəyini aldatmaq üçün belə manevrlər edilir, bu, Avrasiya planı ilə birbaşa bağlıdır..."


Vladimir Jirinovski

**Ötən həftənin əsas mövzularından biri də Rusiya Liberal-Demokratik Partiyasının (RLDP) sədri, Dövlət Dumasının deputatı Vladimir Jirinovskinin Azərbaycanın, eləcə də ölkə başçısının ünvanına söylədiyi təriflər oldu. Jirinovskinin "Rossiya 24" telekanalına müsahibəsində Ukraynadakı son hadisələri şərh edərkən, Azərbaycanın MDB ölkələri arasında müsbət nümunə olduğunu bildirməsi Bakıda əməlli-başlı mövzuya çevrildi.**

Qeyd edək ki, qalmaqallı açıqlamaları ilə tanınan və bir neçə dəfə Azərbaycanın və azərbaycanlıların ünvanına təhqiramiz fikirlər səsləndirən LDPR lideri bu dəfə 180 dərəcə dəyişib. **Sitat:** "Azərbaycan MDB məkanındakı real müsbət nümunədir. Bu ölkənin bütün kəndləri abadlaşdırılıb, idman obyektləri də daxil olmaqla, yeni komplekslər ucaldılır, bütün ölkə tamamilə dəyişilib".

Jirinovski Azərbaycanın müstəqil siyasət yeritdiyini, heç bir ölkə qarşısında öhdəlik götürmədiyini də vurğulayıb, Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə inkişaf etdiyini də bildirib. Eyni zamanda ruslarl Azərbaycanın turizm mərkəzlərindən də istifadə etməyə çağırıb. O, ölkənin bu cür sürətli inkişafını Azərbaycan prezidenti İlham Əliyevin uğurlu siyasəti kimi qiymətləndirib. **"Mən onun atasını da tanıyırdım, Heydər Əliyev dahi azərbaycanlıdır".**

Rusiya "liberalları"nın liderinin bu açıqlaması Bakıda məmnunluqla qarşılanıb. İlk yüksək səviyyəli reaksiya Prezident Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədovdan gəlib. N.Məmmədov öz twitter səhifəsində Jirinovskiyə təşəkkür edib.

Ancaq Rusiyanın qalmaqallı siyasətçisinin "aktivində" Azərbaycana yönəlik sərt və hətta təhqiramiz fikirlər də kifayət qədərdir. Bu mənada onun birdən-birə Azərbaycanın ünvanına təriflər söyləməsi müzakirələrə səbəb olub. Jirinovskinin bu addımının arxasında Azərbaycanın digər MDB ölkələri, xüsusən də GUAM dövlətlərindən fərqli olaraq Rusiya ilə münasibətləri normal səviyyədə saxlamasının dayandığını iddia edənlər də oldu. Eyni zamanda Jirinovskinin pulla susdurulması kimi versiyalar ortaya atıldı.

**Siyasi şərhçi Natiq Miri Jirinovskinin pulla ələ alınması versiyasını ciddi qarşılamır. Ekspertin fikrincə, onun Azərbaycana münasibətinin dəyişməsinin arxasında Kremlin Bakıya yanaşmasının dəyişməsi dayanır:** "Əgər bu, rüşvət məsələsidirsə, hakimiyyət bunu əvvəllər də edə bilərdi. Jirinovski Rusiya siyasətinin lakmus kağızıdır. Moskva əgər bir şeyi etmək istəyirsə, əvvəlcə bunun üçün Jirinovski kimilərin vasitəsilə ictimai fikri hazırlayır. Onun bu gün Azərbaycanın xeyrinə danışması Rusiyanın Azərbaycanla bağlı ümumi strategiyası, yəni Avrasiya planı ilə birbaşa bağlıdır".

**N.Miri deyir ki, Rusiya hakimiyyəti müəyyən görüntü yaratmaq xatirinə Azərbaycana bu şəkildə jestlər edir:** "Elə bir fikir yaradılır ki, guya Rusiya artıq Ermənistanı Azərbaycanın ayağına verir, amma gerçəkdə elə bir şey yoxdur. Avrasiyada Azərbaycan Rusiya üçün nə qədər önəmlidirsə, Ermənistan da o qədər önəmlidir. Ermənistan regional geosiyasi alətdir və Rusiya heç zaman bu alətdən vaz keçməz. Sadəcə, Azərbaycan ictimai rəyini aldatmaq üçün bu cür manevrlər edilir. Bunu bizim hakimiyyət də gözəl bilir. Avrasiyanın baş tutması və bu məkanda bütün cəhətdən güclü inteqrasiya baş verməsi üçün Rusiya Cənubi Qafqazda möhkəmlənməlidir. Ona görə də Rusiya heç kimi narazı salmadan bu siyasəti yürütmək istəyir. Ermənistanın qapı arxasında saxlanmasının əsas səbəbi də məhz budur. O ki qaldı Qarabağ məsələsində Azərbaycana olacaq güzəştə, heç bir güzəşt olmayacaq. Sadəcə, müvəqqəti olaraq hər iki tərəfi qane edəcək ortalıq status müəyyən etmək istəyirlər ki, bu da Azərbaycanın mənafeyinə uyğun deyil".

❑ KƏNAN

# Jirinovski və Zyuqanov beynəlxalq axtarışa verilir

**Ukrayna Daxili İşlər Nazirliyi Rusiya Liberal Demokrat Partiyasının (RLDP) sədri Vladimir Jirinovski və Rusiya Kommunist Partiyasının ( RKP) sədri Gennadi Zyuqanovu beynəlxalq axtarışa vermək niyyətindədir.**

APA-nın məlumatına görə, bu barədə Ukraynanın "ICTV" telekanalının efirində daxili işlər nazirinin müşaviri Anton Qeraşenko bildirib.

"Biz bu insanların heç olmasa istirahətə belə Avropa İttifaqına buraxılmamasına nail olmaq istəyirik. Qoy, Qütb dairəsi və Çukotkada istirahət etsinlər", - deyə A. Qeraşenko bildirib.

Ukrayna DİN rəhbərinin müşaviri habelə əlavə edib ki, Rusiya müdafiə naziri Sergey Şoyquya qarşı materialların toplanılması hazırda müzakirə edilir.

Qeyd edək ki, adları qeyd edilən rusiyalı məmurlar Ukraynanın şərqində silahlılara yardım göstərilməsində və onların fəaliyyətini maliyyələşdirməkdə ittiham olunurlar.

# "Bizi tələbə adını qazana bilməyənlər daha çox maraqlandırmalıdır"

## Təhsil eksperti Etibar Əliyev təhsil sahəsindəki problemlərdən danışdı




**İyulun 24-də prezident İlham Əliyevin sərəncamı ilə rayon təhsil şöbələri ləğv olunaraq regional təhsil idarələri yaradılıb. Təhsil şöbələrinin ləğv edilməsi təhsil sahəsində hansı dəyişiklik edəcək? Təhsil sahəsindəki bu və digər suallarımızı "XXI əsr Təhsil Mərkəzi"nin rəhbəri Etibar Əliyev cavablandırdı.**

***- Təhsil şöbələrinin ləğv edilməsi nəyi dəyişəcək?***

- Azərbaycanda orta məktəblərin ikili tabeçiliyi uzun illərdir ki, davam edirdi. Məktəblərin işinə nazirlikdən daha çox yerli icra hakimiyyətləri müdaxilə edirdi. Şübhəsiz ki, onların müdaxiləsi heç də təhsilin keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı deyildi. İcra hakimiyyəti strukturları istər Bakıda, istərsə də rayonlarda məktəblərə obyekt, gəlir mənbəyi kimi baxırdılar. Regional mərkəzlərin yaradılması ilk öncə məktəblərin icra hakimiyyətlərinin tabeçiliyindən çıxarılmasına, çevik idarəçilik strukturunun yaradılmasına xidmət göstərir. Həmçinin burada artıq keyfiyyətə konkret cavabdehlik, məsuliyyət məsələsi ortaya qoyula bilər. Artıq məktəbi idarə edən strukturlar iki quruma deyil, bir quruma hesabat verəcək. Bəri başdan demək olar ki, bunun müəyyən pozitiv nəticələri olacaq. Bilirik ki, regionlarda təhsilin keyfiyyəti, dərslərə davamiyyət, müəllimlərin peşəkarlıq səviyyəsi, məktəblərin maddi-texniki bazası çox aşağı səviyyədədir. Başqa bir məsələni qeyd edim, bu cür mərkəzləşmiş bir strukturun yaradılması Bakı şəhərində təhsilin keyfiyyətini dəyişmədi. 2008-ci ildə Bakı şəhərində təhsil şöbələri ləğv edildi və Bakı şəhəri üzrəTəhsil İdarəsi yaradıldı. Belə bir idarənin yaranması Bakı şəhərində təhsilin keyfiyyətini dəyişə bilmədi. Çünki əsas məqsəd bu deyildi. Bu, sadəcə olaraq, kurasiyanın nazir müavini təyin olunmuş bir şəxsdən alınıb nazirə verilməsi ilə əlaqədar olaraq həyata keçirilmiş struktur islahatı idi. Hesab edirəm ki, regionlarda yaranmış mərkəzlər Bakı şəhəri üzrə Təhsil İdarəsinin iş prinsipindəki nöqsanları təkrarlamayacaq. Şübhəsiz ki, köhnə kadrlar, yəni 20-25 il rayon təhsil şöbəsinin müdiri vəzifəsini tutmuş şəxslər yenidən o mərkəzlərə cəlb ediləcəksə, heç bir keyfiyyət dəyişikliyindən danışmaq mümkün olmayacaq.

***- Qəbul imtahanları artıq yekunlaşıb. Keçid ballarının ildən-ilə aşağı salınması nədən irəli gəlir?***

- Keçid ballarının ilbəil aşağı salınması məktəb təhsilinin keyfiyyətsizliyi ilə bağlıdır. Bizi ali məktəblərə daxil olan məktəb məzunlarından çox tələbə adını qazana bilməyənlər maraqlandırmalıdır. Orta təhsilin təmayülləşməməsi ucbatından onların böyük əksəriyyəti cəmiyyətdə öz yerlərini tuta bilmirlər. Digər ciddi problem 150-300 bal toplamış və tələbə adını qazanmış şəxslərdən mütəxəssis hazırlamağın yollarının axtarılmasıdır. Burada ali məktəblərin üzərinə çox ciddi məsuliyyət düşür. Aşağı bal toplayan tələbələr üçün ali məktəblərdə hazırlıq şöbələri yaradılmalıdır. Digər tərəfdən isə ali məktəblərin indiki durumu bu cür aşağı nəticə göstərənlərin təhsil almalarına münbit şərait yaradır. Bir çox ali təhsil müəssisələrində tapşırıq və digər əyri yollar tam şərait yaradır ki, aşağı bal toplamış insanlar ali məktəbi bitirə bilsinlər. Məsələnin digər tərəfi də maraqlıdır: bizim ali məktəblərin maddi-texniki bazası, təhsil mühiti və professor-müəllim heyəti yüksək bal toplamış məzunların təhsilini normal təşkil edə bilirmi? Bir neçə ali məktəb, məsələn, Bakı Ali Neft Məktəbi, Azərbaycan Diplomatiya Akademiyası, Dövlət İdarəçilik Akademiyası istisna olmaqla, yerdə qalan ali məktəblər demək olar ki, yüksək balla tələbə adı qazananların lazımi səviyyədə təhsil almasına şərait yarada bilmir. Buna görə də 600-dən yuxarı bal toplamış abituriyentlər xarici ölkələrdə təhsil almağa can atırlar.



***- Bir sıra abituriyentlər ali məktəblərin ödənişli fakültələrinə qəbul olunduqda bundan imtina edirlər. Səbəb isə təhsil haqqının çox baha olmasıdır. Təhsil haqlarının getdikcə artmasına münasibətiniz necədir?***

- Azərbaycan neft ölkəsidir və qarşıya qoyulan əsas məqsədlərdən biri insan kapitalının inkişafıdır. Buna baxmayaraq, hətta dövlət ali məktəblərində 70 faiz tələbələr ödənişli təhsil alırlar. Təhsil haqları təhsilin keyfiyyətinə uyğun müəyyənləşdirilmir. Yəni təhsilin keyfiyyəti qiymətləndirilməmiş ali məktəblərdə belə yüksək təhsil haqqının müəyyənləşdirilməsi düzgün deyil. Təhsil haqlarının yüksəldilməsi ilə bağlı cəmiyyətə məlumat verilməlidir. Məsələn, əgər yeni kampus, kafedralar yaradılırsa, xarici ölkələrdən müəllimlər dəvət edilirsə və hansısa pulsuz xidmətlər təklif olunursa, bu halda təhsil haqqını yüksəltmək mümkündür. Yaxud universitet hansısa nüfuzlu reytinq cədvəlində yer tutubsa, bunu etmək olar və bunun izahatı da var. Məsələn, Xarici Dillər Universitetinin ingilis dili müəllimliyi ixtisasına artıq 250-dən yuxarı bal toplayanlar daxil olur. Əvvəllər isə bu ixtisasa yüksək balla daxil olmaq mümkün idi. Bu onu göstərir ki, yüksək bal toplamış abituriyentlər keyfiyyətsiz təhsilə görə bu ixtisası artıq seçmirlər. Buna baxmayaraq, bu ali məktəbin rəhbəri bu ixtisas üzrə təhsil haqqını 2500 manata qaldırıb. Demək, maraqlı olan puldur.

***- Orta təhsilin keyfiyyətinin aşağı düşməsində yalnızca müəllimləri günahlandırmaq düzgündürmü?***

- Müəllimlər bu gün iki yerdə-məktəbdə və repetitor kimi çalışırlar. Repetitorlar şagirdlə daha fəal çalışırlar. Çünki oradan gələn gəlir məktəbdəki əmək haqqından xeyli yüksəkdir. Təsadüfi deyil ki, yüksək bal toplamış abituriyentlərin tam əksəriyyəti uğura görə məktəbin deyil, repetitorların, ya da hazırlıq kurslarının adını çəkirlər. Ona görə də nə qədər həvəsləndirici tədbirlər olsa belə, məktəb divarları arasındakı tədris repetitor xidmətindən geridə qalacaq. Məsələn, səhv etmirəmsə indiyə qədər 700- dən çox orta məktəb müəllimi ilin ən yaxşı müəllimi adına layiq görülüb. Ancaq bu hələlik heç nəyi dəyişmyib. Əlbəttə ki, əmək haqqının az olması təhsilin keyfiyyətinə və müəllimin tədrisinə təsir göstərir. Ancaq bu o demək deyil ki, müəllim məktəbdə tədris prosesinə tam etinasız yanaşmalıdır.

***- Sizcə, təhsil naziri Mikayıl Cabbarov 1 ildən artıq bir zamanda təhsil sahəsində hansısa müsbət dəyişikliklər edə bildimi?***

- Keçmiş təhsil naziri ilə indiki naziri çalışdıqları müddət baxımından müqayisə etmək bir az çətindir. Misir Mərdənaov 15 il təhsil naziri vəzifəsində işləyib. Mikayıl Cabbarov isə bir ildən bir qədər çoxdur ki, bu vəzifəni tutur. Etiraf etmək lazımdır ki, təhsil sistemində müəyyən canlanma hiss olunur. Pozitiv işlərin şahidi oluruq. Mən Mərdanovun 15 ilini təhsilimiz üçün itirilmiş illər sayıram. Onun işlədiyi vaxtda funksional savadsızlıq inkişaf etdi, orta məktəblər bazara çevrildi. "Nazir dəyişdisə, hər şey dərhal dəyişəcək" prinsipi ilə hərəkət etmək doğru deyil. Nazirin formalaşdırdığı komanda mobil şəkildə işləməlidir. Məncə, yeni nazir komandasını hələ normal formalaşdıra bilməyib. Təhsil müəssisələrinin rəhbərləri keyfiyyətə cavadehlik daşımırlar. Onlardan heç bunu tələb edən də yoxdur. Bu, keçmiş nazirin vaxtında da belə idi, indi də belədir. Açığını deyim ki, hələlik keçmiş nazirin dövründə baş verən neqativ halların azaldılması istiqamətində elə bir ciddi addımlar atılmayıb.

Təəccüblüsü budur ki, keçmiş nazirin yaxın adamları olan və indi də təhsil sistemində çalışan və bir o qədər müsbət imici olmayan kadrlar yeni nazirə də çox yaxındırlar.

❑ **Günel MANAFLI**




# Sirac Kərimliyə işgəncə verildiyi haqda xəbər yayılıb

## Kərimli qardaşları ilə bağlı qeyri-müəyyənlik davam edir; gənc fəal Bakı İstintaq Təcridxanasına köçürülüb...

**Xəbər verdiyimiz kimi, iyulun 23-də Müsavat Gənclər Təşkilatı (MGT) MTK-nın sədri, gənc blogger, musavat.org.az saytının admini Fərəc Kərimli oğurlanıb. Sonradan onun Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində saxlandığı barədə məlumat yayılıb.**

Artıq müsavatçı fəala qarşı 234.4.3 maddəsi ilə (külli miqdarda narkotik əldə etmə, saxlama və satma) ittiham irəli sürülərək, barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilib. "Amnesty International" təşkilatı Fərəc Kərimlinin gizlədilməsinə səbəb kimi ona verilə biləcək işgəncələrlə bağlı bəyanat yayıb. Hüquq müdafiə təşkilatı gəncin siyasi fəallığına görə həbs olunduğunu bəyanatda qeyd edib.

Bəyanatın ardından iyulun 26-da İşgəncələr Əleyhinə Azərbaycan Komitəsinin sədri Elçin Behbudov Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində onunla görüşüb. O, Fərəc Kərimlinin sağlamlıq durumunun yerində olduğunu, ona qarşı işgəncə verilmədiyini bildirib. Hüquq müdafiəçisi onu da qeyd edib ki, gənc blogger ona qarşı irəli sürülən maddə üzrə özünü təqsirli bilmir.

**İyulun 28-də Fərəc Kərimli 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb. Bu barədə musavat.com-a açıqlamasında fəalın atası Raqif Kərimli danışıb:** "İyulun 28-də Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə Fərəcə yemək və başqa ləvazimatlar apardıq. Oradan bizə dedilər ki, Fərəc Kürdəxanı Təcridxanasına aparılıb. Hazırda orada saxlanılan digər oğlum Sirac artıq karantindən çıxarılıb. Bu gün *(dünən -red.)* təcridxanaya gedib, görüşməyə çalışacağıq. Mən bizə dəstək olan bütün mətbuat orqanlarına minnətdarlığımı bildirirəm. Amma jurnalistlərdən xahiş edirəm ki, heç zaman Fərəc və Siracı ayırmasınlar. Çünki Siracın partiya mənsubiyyəti olmasa da, o, Fərəcə görə tutulub".

**Fərəc Kərimlinin vəkili Nemət Kərimli bayram günləri olduğundan, hüquqlarını qoruduğu şəxslə görüşə bilmədiyini bildirdi:** "Sadəcə, Fərəcin Kürdəxanıya köçürüldüyünü bilirik. Bayram başa çatan kimi onunla görüşəcəyəm. Ona işgəncə verilə biləcəyi ehtimalı var. Amma Elçin Behbudov onunla görüşüb və belə məlumatın doğru olmadığını bildirib. Biz bu məlumatı dəqiqləşdirməyə çalışacağıq".

**Fərəc Kərimlinin Hüquqlarını Müdafiə Komitəsinin sədri Əhliman Abbas həbsdən keçən müddətdə onun müdafiəsi istiqamətində gördükləri işlərdən danışdı:** "Bayramla əlaqədar biz yalnız Fərəcin vəkili ilə əlaqə saxlayırdıq. Bizdə yalnız o məlumat var ki, Fərəc artıq 1 saylı Bakı İstintaq Təcridxanasına köçürülüb. Ümid edirik ki, istirahət günləri bitdikdən sonra daha geniş məlumat əldə edəcəyik. O, həbs olunduğu zamandan bu günə qədər birbaşa əlaqə yarada bilməmişik. Yalnız Elçin Behbudovun məlumatından başqa. Onun da məlumatının nə dərəcədə doğru olduğunu bilmirik. Fərəcin müdafiəsi ilə bağlı bir çox işlər görmüşük. Sosial şəbəkədə Fərəcin Kərimlinin Hüquqlarını Müdafiə Komitəsinin rəsmi səhifəsini yaratdıq. Onun qanunsuz həbsi ilə bağlı Hüquqlarını Müdafiə Komitəsinin bəyanatını hazırlayaraq, yerli və beynəlxalq hüquq təşkilatlarına, insan hüquqları müdafiəçilərinə göndərdik. Bildiyimiz kimi, "Amnesty International" təşkilatı Fərəcin həbsini pisləyən bəyanat verdi. Bundan əlavə, MGT-nin qoşulduğu Liberal Gənclər İttifaqı da Fərəcin həbsinə sərt təpki verdi. Bu istiqamətdə işlərimiz davam edir".

Onu da qeyd edək ki, Fərəc Kərimlidən bir həftə öncə qardaşı Sirac Kərimli həbs edilib. Ona qarşı da 234.4.3 maddəsi ilə cinayət işi açılıb. Hər iki qardaşı 7 ildən 12 ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 190 (5899) 30 iyul 2014



# Üçüncü müttəfiqliyin hədəfi - Rusiya

Xalid KAZIMLI

**Dünyanın beş qüdrətli dövlətinin rəhbəri Rusiyaya, konkret olaraq, prezident Putinə qarşı birləşiblər. Bunlar ABŞ, Britaniya, Fransa, Almaniya və İtaliyanın başçılarıdır.**

Obama, Kemeron, Olland, Merkel və Rensi iyulun 28-də bir-biriylə telefonla danışıblar və müvafiq razılığa gəliblər.

Onlar Rusiyanın Ukraynada oynadığı tragik rola görə bu ölkəyə yeni, daha təsirli sanskiyalar tətbiq edəcəklər.

Hələlik yeni sanskiyaların nədən ibarət olduğu barədə heç nə deyilmir.

Ancaq hiss olunur ki, bu qüdrətli dövlətlərin liderləri Ukraynadan Krımı dişləyib qoparandan sonra dişi qana batmış "rus ayısı"nı durdurmaq üçün məşhur Hollivud filmində *("Son həddə", Şon Konnori)* olduğu kimi ucu itilənmiş payadan istifadə etməyi düşünürlər.

Başqa yol yoxdur. Rusiya neo-imperiya maraqlarını təmin etməkdən ötrü öz slavyan qardaşının, min illik müttəfiqinin boğazına bıçaq çəkməyə hazır olduğunu göstərəcək qədər cürətə və avantürist düşüncəyə sahib olduğunu sərgiləməkdədir.

Bu, tarixdə dəfələrlə sınaqdan keçirilmiş bir üsuldur. Avropanın bugünkü firavanlığının, təhlükəsizliyə qovuşmasının başlıca səbəbi qoca qitədə söz sahibi olan dövlətlərin hər kəsi təhdid edən aqressora qarşı vaxtında birləşmələri, müttəfiq olmalarıdır.

Vaxtilə avropalılar Avropanı Madriddən Moskvaya qədər qana çalxayan, top mərmiləri ilə dəlmə-deşik edən Napoleonu məhz bu cür, birləşərək ram etmişdilər. Təkbətək mübarizəyə qalanda Napoleon onları darmadağın edirdi, amma hərəsi bir tərəfdən qoçunla onun üstünə gələndə o boyda müzəffər fateh göz dustağına çevrildi.

O zaman bütün Avropa Napoleon Fransasına qarşı birləşmişdisə, ötən əsrin 30-cu illərində yenə bütün Avropa *(içində də Fransa)* Hitler Almaniyasına qarşı birləşdi. Çünki bu dəfə də qüdrətlənmiş Almaniya bütün qitənin azadlıq və təhlükəsizliyini təhdid edirdi.

Avropanın bu de-marşı da uğurlu nəticələndi, qitənin başı üstünü almış qara buludlar dağıdıldı.

Bu iki böyük müttəfiqlik layihəsində Rusiya da yer almış, müttəfiqlərin səfində durmuş, onların zərbə vuran əlini gücləndirmişdi.

Avropanın superdövlətlərinin üçüncü böyük müttəfiqlik sazişində bu dəfə Almaniya və Fransa təmsil olunur, əvəzində təklənən tərəf Rusiyadır.

Hazırda yeni müttəfiqlik büsatının və onların tətbiq etdiyi sanksiyaların Rusiyanı çökdürəcəyini düşünənlərlə yanaşı, bu xəttin Rusiyaya heç nə edə bilməyəcəyini söyləyənlər də var.

Düzdür, Rusiyanın təbii resursları zəngindir, ərazisi böyükdür və Avropa dövlərlərinin hamısı bütövlükdə bu arxipelaqa iki dəfə yerləşərlər, amma iqtisadi qüdrətə qalarsa, təkcə Almaniya və İngiltərə ayrılıqda Rusiyadan güclüdürlər. Birləşmiş Avropa isə Rusiyadan qat-qat güclü olacaq.

"Azad ellərdə ömürlük dost ailəsi yaratmış möhtəşəm Rus diyarı" öz əski qüdrətini *(SSRİ dönəmindəkini)* qəlpə-qəlpə itirərək indiki vaxtına gəlib. İndi onun ətrafında ən Polşa var, nə Çexoslovakiya, nə Rumıniya, nə Macarıstan, nə Bolqarıstan, nə ADR, nə Monqolustan...

Baxaq, görək, 15 müttəfiq sovet respublikasından Moskvanın yanında səmimi şəkildə neçəsi qalıb? Türk fobiyasından əziyyət çəkən Ermənistandan və iqtisadi asılılıq çatısını boğazından çıxara bilməyən, hətta arada boğulacağından ehtiyat edən Belorusdan başqa heç hansı.

Bu gün həmin keçmiş müttəfiq respublikalar anti-Rusiya blokuna yalnız aqressordan qorxduqları üçün qoşulmurlar, yoxsa hər biri Moskvadan gələn təhdidin miqyasını yaxşı bilir.

Beləliklə, SSRİ kimi azman imperiyanın geniş hüdudlarını itirən, ciddi boykotpozan amil səciyyəsi daşıyan sosialist ölkələri düşərgəsinin dəstəyindən məhrum olan Rusiyanın öz zağasına çəkilməkdən başqa yolu yoxdur.

1980-ci illəri xatırlayaq. O vaxt SSRİ Əfqanıstana işğalçı qoşun yeritdiyinə görə Qərbin sanksiyalarına məruz qalmışdı. Ölkədə görünməmiş qıtlıq yaranmışdı. Üstəlik, ABŞ başda olmaqla bir sıra ölkələr Moskva olimpiadasını boykot etdilər.

Hazırda 2018-ci ildə Moskvada keçirilməsi nəzərdə tutulan futbol mundialının boykot olunmasına dair çağırışlar artmaqdadır. Belə davam edərsə, o da olacaq.

Başqa sözlə, Rusiyanı təkcə siyasi-iqtisadi sanksiyalar gözləmir, bu ölkə mədəniyyət, incəsənət, idman, turizm və bir sıra başqa sahələrdə də sanksiyaya məruz qalacaq, Avropadan təcrid olunacaq.

Avantürist imperiya ambisiyalarına görə bu qədər itkiyə təhəmmül etmək olarmı?

# Ramazanın sonuncu gününün dartışması - Ay mübahisəsi

**Kənan Rövşənoğlu:** "Bir sıra ölkələrdə klassik qaydada Ayın məhz insan gözü ilə görünməsinə əməl olunur"

**Rəsul Mirhəşimli:** "Bayram günü insanların oruc tutmalarına səbəb olduqları üçün çox böyük günah qazanırlar"

**Ramazan bayramı təqvimi Azərbaycanda yenə çaşqınlıq yaradıb. Azərbaycanda bir qisim müsəlman bayramı iyulun 28-də, bir qisim isə 29-da qeyd edir. Orucluq - Ramazan bayramı Qəməri ayının sonu hilalın, yəni yeni Ayın görünməsi ilə müəyyən edilir. Ayın görünməsi ertəsi günün bayram olmasına işarədir.**



Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Astrofizika İnstitutu Ramazan ayının sonuncu gününün iyulun 27-də olduğunu açıqlasa da, Qafqaz Müsəlmanları İdarəsi (QMİ) bayramın ayın 29-da olduğunu bildirib. Ramazan təqvimində ortaya çıxan bu fərq isə hər il narahatlıq yaradır.

Bu il bayram günlərində yaranan fərqlər yenə də müzakirə mövzusu olub. Məsələ hətta sosial şəbəkələrdə də dartışılıb. Deputat Fazil Mustafa da bayram günü ilə bağlı yaranan fikir ayrılıqlarına etirazını bildirib. O, facebookda QMİ-ni sərt tənqid edib. Deputat deyib ki, bəzi qüvvələr Azərbaycanı İranın dini müstəmləkəsinə çevirməyə çalışır.

**Dini ekspert Kənan Rövşənoğlu isə bildirir ki, bu məsələnin o qədər də böyüdülməsinə gərək yoxdur. O, "Yeni Müsavat"a açıqlamasında qeyd edib ki, Qurana əsasən Ayın görünməsi ilə yeni ayın başlanmasına işarə olunur:** "İnsanlara doğru yolu göstərən, bu yolu açıq dəlilləri ilə aydınlaşdıran və (haqqı batildən) ayıran (Quran) Ramazan ayında nazil edilib. Aya (ramazan ayına) yetişən şəxslər (bu ayı) oruc tutmalıdırlar; xəstə və ya səfərdə olanlar isə tutmadığı günlərin sayı qədər başqa günlərdə tutsunlar. Allah sizin üçün ağırlıq deyil, yüngüllük istər ki, fövtə gedən günlərin orucunu tamamlayasınız və sizi düz yola yönəltməsinə görə Ona ("Allahu əkbər" deməklə) təzim və şükür edəsiniz". (Bəqərə-185-ci ayə).

Quranın bu ayəsindən çıxış edərək Ayın görünməsini şərt kimi qəbul edirlər. Ancaq bir sıra müsəlman ölkələri müasir texnologiyaların inkişafına əsaslanaraq yeni Ayın doğmasını elmi hesablamalara əsasən müəyyən edərək dini təqvimləri də buna əsasən müəyyən edir. Eyni zamanda bir sıra ölkələrdə klassik qaydada Ayın məhz insan gözü ilə görünməsi ilə bağlı İslam dini şərtlərinə əməl olunur. Məsələn, şiə üləmaları bir qayda olaraq Ayın gözlə görülməsini əsas götürür. Ancaq sünni ölkələrdə bu məsələdə ikili yanaşma var. Türkiyə və bir sıra digər ölkələrdə Ayın doğması elmi hesablamalar əsasında müəyyən olunursa, Səudiyyə Ərəbistanı kimi ölkələrdə gözlə müşahidə əsas şərtlərdən biri olaraq qalır".

**Dini ekspert Rəsul Mirhəşimli də baş verənlərin narahatlıq doğurduğunu vurğulayır:** "AMEA-nın Astrofizika İnstitutu Ramazan ayının sonuncu gününün iyulun 27-də olduğunu açıqlayıb. Əlavə edib ki, Fitr (Ramazan) bayramı iyulun 28-dədi. Bunun adı astronomik müşahidə deyil, dini fətvadı. QMİ-nin də bayramdan 10 gün əvvəl bayramın iyulun 29-da olduğunu deməsi dini fətva deyil, nəsə başqa şeydi. Adamları girinc ediblər".

**Ekspert "Yeni Müsavat"a açıqlamasında qeyd edib ki, müsəlmanların bayramları eyni gündə deyil, fərqli vaxtlarda qeyd etməsi xoşagələn hal deyil:** "Çox yaxşı olardı ki, müsəlmanlar hamısı bir yerdə bayramı qeyd etsin. Çünki bayram insanların bir araya gəldiyi, Ramazan nemətlərini, sevincini bölüşdüyü bir gündür. Hər il bayram günündə fərqlilik üzə çıxır. Məsələ bundadır ki, müzakirələrdə daha çox ifrata varırlar. Ramazan bayramının Hilalın göründüyü vaxtda keçirilməsi din aləm arasında problem yaradan ixtilafdır. Bir qisim Ayın çıxması ilə, digər qisim isə Ayın görünməsi ilə bayramı hesablayır. Bu il çox böyük əminliklə hamı bilir ki, iyulun 27-də Ay çıxıb. Ayın çıxması ilə bayram edilsin, ya görülməsi ilə, bu iki fikir arasında fərq var. Məsələ bundadır ki, Türkiyə və bir neçə ölkələr Ramazan bayramının vaxtı barədə məlumat verəndən sonra digər bir dövlət çıxıb fərqli tarix söyləyir, başqa tarixdə qərar verir və fərq meydana gəlir. Bu qərara görə də müsəlmanlar arasında parçalanma baş verir. Ayın 29-da bayramdır deyən alimlər təkidlə çox sayda insanların oruc tutmasına səbəb olduqları üçün böyük günaha girirlər. Bayram günü insanların oruc tutmalarına səbəb olduqları üçün çox böyük günah qazanırlar. O günahın altından çıxa biləcəklərmi, bunu bilmirəm. Bunun günahı təkcə bu dünyada deyil, axirətdə də hesablanacaq".

❑ Röya RƏFİYEVA

# Şeyxin rəhbərliyi ilə bayram namazı qılındı

**Azərbaycanda müqəddəs Ramazan ayının başa çatması münasibətilə iyulun 29-da səhər saatlarında bayram namazı qılınıb.**



"Qafqazinfo"nun anspress-ə istinadən məlumatına görə, "Təzəpir" məscidində saat 9.00-da başlayan namaz isə QMİ sədri, Şeyxülislam Hacı Allahşükür Paşazadənin rəhbərliyi ilə qılınıb.

"Əjdərbəy" məscidində isə namaz Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədr müavini Hacı Salman Musayevin başçılığı ilə qılınıb.

Namazda yüzlərlə insan iştirak edib.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Hacı Allahşükür Paşazadə bayram münasibətilə bir daha müsəlmanları təbrik edib. QMİ sədri əmin-amanlıq arzulayıb, Qarabağ torpaqlarının işğaldan azad olunması üçün dualar etdiyini bildirib.

Ramazan ayı insanlara Allahı sevmək prinsiplərini öyrədir, onlara öz iradə qüvvələrini, dözümlülüyünü yoxlamaq imkanı verir, onları gözüaçıq, təmiz vicdanlı olmağa yönəldir və oruc tutmaqla ifadə olunur. İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və ən müqəddəs ay hesab edilir. Ramazan ayını "on bir ayın sultanı" da adlandırırlar. Ramazan bayramının məqsədlərindən biri müsəlmanların toplanması və görüşməsidir.

YENİ MÜSAVAT
N 190 (5899) 30 iyul 2014




# Deputat atəş altındakı Əlibəylidəki son durumdan danışdı

## Tovuzdan qayıdan Qənirə Paşayeva beynəlxalq təşkilatların mövqeyini kəskin tənqid etdi; millət vəkili bildirdi ki, son atəşkəs zamanı ermənilərə lazımi şəkildə cavab verilib

**Ermənilər Tovuz rayonunun Əlibəyli kəndini demək olar ki, hər gün atəşə məruz qoyur. İyulun 28-i axşamdan başlayaraq kənd yenidən Ermənistan silahlı qüvvələri tərəfindən aramsız atəşə məruz qalıb. Təmas xəttində yaşayan Əlibəyli sakinlərindən tez-tez "yenə də atırlar", "bizi vururlar" nidaları ilə başlayan həyəcanlı xəbərlər alırıq.**

Əlibəylidəki vəziyyətlə bağlı deputat Qənirə Paşayeva ilə söhbətləşdik. Tovuzdan millət vəkili seçilən Q.Paşayeva rayondan iyulun 29-da səhər saatlarında qayıtdığını bildirdi.

- Bizim üçün önəmli bayramlarda - Novruzda, Ramazanda Ermənistan silahlı qüvvələri sırf mülki vətəndaşları, onların evlərini hədəfə alır. Bu, həmişə belə olub. Özəlliklə çox təəssüf edirik ki, ermənilər mülki vətəndaşlara qarşı belə hərəkətlər etməklə insanlıqdan kənar əməllər törətmiş olurlar. Təbii ki, bizim Tovuz istiqamətində böyük bir ön cəbhəmiz var və bu ön cəbhə çox yaxşı qorunur. Düşmən qeyri-insani hərəkətlərə əl ataraq uzaq vuran silahlarla məhz mülki vətəndaşları, onların evlərini hədəfə alır. Bu da bütün beynəlxalq konvensiyalara, beynəlxalq hüquq normalarına ziddir. Amma çox təəssüf ki, Ermənistanın, onun silahlı qüvvələrinin bu kimi insanlıqdan kənar davranışları beynəlxalq təşkilatlar, özəlliklə münaqişənin tənzimlənməsində rol alan ATƏT-in Minsk Qrupu həmsədrləri tərəfindən ciddi şəkildə pislənilmir. Bizim gözlədiyimiz odur ki, Ermənistana bununla bağlı ciddi şəkildə təzyiq göstərilməlidir. Mülki vətəndaşların, onların evlərinin hədəf alınması yolverilməzdir. Çox təəssüf ki, beynəlxalq təşkilatların, xüsusilə də ATƏT-in Minsk Qrupu həmsədrlərinin fəaliyyəti qaneedici səviyyədə deyil. Həmsədrlər belə məsələlərdə susqunluq nümayiş etdirirlər və ya ümumi, heç bir təsiri olmayan bəyanatlar, açıqlamalar verməklə kifayətlənirlər. Ermənistana təzyiq və təsir göstərmək yoxdur. Ermənistan belə qeyri-insani addımlarla mülki vətəndaşları narahat etməyə, gərginlik yaratmağa, təmas xəttində yaşayan vətəndaşlarımızın yurd-yuvalarından çıxmalarına nail olmaq istəyir. Müharibənin ən gərgin vaxtlarında həmin evlərdə yaşayıb müdafiə olunan sakinlər ordumuzla bərabər olub. Heç vaxt bir evi belə tərk etməyiblər.

**- Hər dəfə Ermənistan silahlı qüvvələrinin hücumu olanda ortaya belə iddia çıxır ki, Azərbaycan tərəfi susur və ya adekvat cavab vermir. Bu baxımdan Əlibəylidə vəziyyət necədir?**

- Tovuzdan yenicə qayıtmışam. Əlibəyli cəbhəsindən ermənilərə gərəkən cavab verildi! Düşmənin bunu etiraf edən açıqlamaları da olur. Mən ön cəbhədə olub hərbçilərlə söhbət etmişəm. Düşmənə layiqli cavab verilir. Bizim Tovuz istiqamətində ciddi itkilərimiz yoxdur. Düşmən mülki insanları vurmaqla gərginliyi artırmağa can atır. Vurulan insanlara baxın. Birini evinin qarşısında, o birini isə evinin içində vurublar. Bizim insanlar bunu dərk edəcək düşüncədədir. Çünki illərdir ki, insanlarımız Ermənistanın bu kimi təxribatlarının arxasında duran məqsədlərini çox yaxşı bilirlər. Birmənalı şəkildə deyirəm ki, bizim ordumuz, hərbçilərimiz düşmənə ən layiqli şəkildə cavab verirlər.

**- Tovuz istiqamətinə əlavə hərbi qüvvə yığılırmı?**

- İstənilən qədər qüvvə var. Möhkəmləndirilmə mütəmadi şəkildə davam etdirilir. Hazırda bəzi ailələrimizin, onların yaşadığı evlərin qorunması istiqamətində də işlər görülür.

**- Təmas xəttində yaşayan sakinlərin evlərinin vurulmasının qarşısının alınması üçün tədbirləri bir qədər də sürətləndirmək olmazmı?**

- Belə tədbirlər görülür və görüləcək. Bəzi evlərimiz var ki, onları müxtəlif çaplı silahlarla düşmən hədəf ala bilir. Evləri düşmən gülləsindən qoruyan divarların tikilməsi istiqamətində də işlərin həcmi artırılır. Bu istiqamətdə Qırmızı Xaç Komitəsi ilə birgə işlər həyata keçirilir. Hansı evlər ki, mütəmadi olaraq hədəf alınır, həmin evlərin qoruyucu divarlarla düşmən gülləsindən yayındırılması üçün tədbirlər həyata keçirilir. Belə tədbirlər artmalıdır. Çünki düşmən sadə insanlara - uşaqlara, qocalara, qadınlara atəş açmaq kimi qeyri-insani xislətindən əl çəkə bilmir. Ordumuz insanlarımızı ən yüksək səviyyədə qoruyur, amma insanlarımızın düşmən tərəfindən hansısa istiqamətdən hədəf alınmasının qarşısını tamamilə alınması üçün belə qoruyucu divarların sayı artmalıdır.

**- Həmin insanları cəbhə xəttindən çıxarmaq, başqa yerə məskunlaşdırmaq planı varmı?**

- Düşmənin istədiyi də budur ki, kəndlərimiz boşalsın. Amma o kəndlər müharibənin ən qızğın, ən ağrılı-acılı günlərini yaşayıb. Heç vaxt evlərindən çıxmayıb, geri çəkilməyiblər. Bu gün isə bütün o cəbhədə bizim ordumuz var. Təmas xəttindəki evlərimizin qarşısında bizim əsgərlərimiz var. İnsanlarımızın oradan köçməsi düşmənin arzusu, istəyidir. Biz buna imkan verməməliyik. İndiyədək təmas xəttində yaşayan bir kimsədən "biz buradan köçmək istəyirik" sözlərini eşitməmişəm. Həmin insanlar müharibənin ən qızğın vaxtında evlərini tərk edib düşməni sevindirməyiblər. Düşmənin əlindəki yüksəklikdən istifadə edərək qeyri-insani xislətini ortaya qoyması da heç nəyi dəyişmir. Təmas xəttindəki qoruyucu divarların inşası vətəndaşlarımızın hədəfə alınmasının qarşısını alacaq. Xatırladım ki, iyulun 26-da düşmən tərəfindən açılan atəş nəticəsində Tovuzun Əlibəyli kəndinin iki sakini, 1997-ci il təvəllüdlü Fərid Nəbi oğlu Məmmədov və 1962-ci il təvəllüdlü Anya Qara qızı Ələkbərova yaralanıblar. Fərid evinin içində erməni gülləsindən ağır şəkildə yaralanıb. Bu gəncin evinin içində erməni gülləsindən yaralanmasına görə bir beynəlxalq təşkilatdan səs çıxmadı, bəyanat verilmədi.




**"Azərbaycanlı gənc evinin içində erməni gülləsindən yaralanır, beynəlxalq təşkilatların birindən səs çıxmır"**

❑ **E.MƏMMƏDƏLİYEV**



# ABŞ səfirindən ATƏT-in Bakıdakı koordinatoruna sərt sözlər

## Daniel Baer: "Sizin şefiniz Azərbaycan hökuməti deyil"

**ABŞ Azərbaycan hökumətini ATƏT layihələri koordinatorunun işinin bütün istiqamətlərdə asanlaşdırılmasına çağırır. Bu fikir ötən həftə Vyanada ATƏT-in Daimi Şurasının iclasında səslənib.**

Bakıda ATƏT layihələrinin koordinatoruna isə "vətəndaş cəmiyyəti ilə dialoqun dəstəklənməsi üçün səylərin ikiqat artırılması, qanunun aliliyinə, demokratik seçkilərə, əsas insan hüquq və azadlıqlarına hörmətlə yanaşılmasına riayət edilməsi" tövsiyə olunur.

Bu barədə "Turan"ın Vaşinqton müxbiri diplomatik mənbələrə istinadən bildirib.

ABŞ-ın mövqeyini Vaşinqtonun ATƏT-dəki nümayəndəsi səfir Daniel Baer açıqlayıb. Ondan əvvəl ATƏT-in Bakıdakı layihələrinin koordinatoru Aleksis Şahtaxtinski məruzə ilə çıxış edib.

Baer Şahtaxtinskini Azərbaycanda vətəndaş cəmiyyəti ilə əlaqələr qurmaq üçün real səylər göstərməyə çağırıb: "Mən sizin iki fotonuzu gördüm, biri prezident Əliyevlə, digəri xarici işlər naziri ilə. Lakin vətəndaş cəmiyyəti ilə fotonuzu görmədim. Sadəcə, sizə xatırlatmaq istərdim ki, sizin çalışdığınız ölkələrin hökumətləri ilə məsləhətləşmələriniz sözsüz ki, işinizin mühüm hissəsidir. Ancaq siz bizim hamımız üçün işləyirsiniz və siz bu qurumun əsasını təşkil edən prinsiplər üzrə çalışırsınız. Sizin şefiniz Azərbaycan hökuməti deyil.

Azərbaycan beynəlxalq arenada öz üzərinə böyük məsuliyyət götürməyə can atır. ABŞ ATƏT vasitəsilə insan hüquq və azadlıqlarının müdafiəsi, ölkədə demokratiyanın inkişafı məqsədilə Bakı ilə əməkdaşlığa sadiqdir".

Baer xatırladıb ki, ATƏT layihələrinin koordinatoru ATƏT prinsiplərinin dəstəklənməsi üçün Azərbaycan xalqı və hökuməti ilə iş üzrə xüsusi məsuliyyət daşıyır. Bu, ilk növbədə insan hüquq və azadlıqlarına, vətəndaş cəmiyyəti ilə güclü əlaqələrin dəstəklənməsinə aiddir.

"Daimi Komitənin 1092 saylı qərarı ilə ATƏT layihələrinin koordinatorunun mandatı ofisi vətəndaş cəmiyyəti ilə əlaqələri dəstəkləməyə çağırır, o cümlədən konkret layihələrdən kənar əlaqələri. Biz sizi ATƏT-in fəaliyyətinin məhdudlaşdırılması cəhdlərini nəzərə alaraq, öz mandatınıza riayət etməyə çağırırıq. Bu, əsasən layihələrin təsdiqlənməsi prosedurunun sərtləşdirilməsi fonunda baş verir. Bütün bunlar ATƏT-in Azərbaycana lazımi dəstək göstərməsinə mane olur ki, bu da yolverilməzdir", - deyə Baer bildirib.

**ABŞ səfiri Azərbaycan hökumətinin müstəqil KİV, QHT və vətəndaş cəmiyyəti fəallarına təzyiqləri davam etdirdiyini nəzərə alaraq Vaşinqtonun narahat olduğunu bildirib:** "ABŞ əvvəlkitək martda müxalifət liderləri İlqar Məmmədov və Tofiq Yaqublunun, mayda QHT rəhbəri Anar Məmmədlinin həbsindən narahatdır. ABŞ Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus, onun həyat yoldaşı Arif Yunus və jurnalist Rauf Mirqədirova qarşı cinayət işindən narahatdır. Onlar xalq diplomatiyası üzrə layihələrə cəlb olunublar. Facebook fəalları Elsevər Mürsəlli, Abdul Əbilov və Ömər Məmmədovun narkotik maddə saxlamaq kimi şübhli ittihamlarla tutulması korrupsiya və insan hüquqlarının pozulmasına görə hökuməti tənqid etmələrinə cavabdır. Bütün bunlar Azərbaycanda öz fikrini söyləmək hüququnun vəziyyəti barədə həyəcan siqnalıdır.

Nəhayət, bu yaxınlarda Gəncədən QHT lideri Həsən Hüseynli uydurma ittihamla mühakimə edilib. Bu, öz hüquq və azadlıqlarını həyata keçirmək istəyənlərin təqib edilməsi üzrə daha bir həyəcanlı mənzərəyə nümunədir".

Xatırladaq ki, ötən il Azərbaycan hökuməti ATƏT-in Bakı ofisinin mandatının layihələrin koordinatoru səviyyəsinə endirilməsini tələb edib. Vaşinqton isə bunu etməməyə çağırmışdı.

Fransalı diplomat Aleksis Şahtaxtinski ATƏT layihələrinin koordinatoru təyin edilib və 2014-cü il martın 1-dən bu postda çalışır.

YENİ MÜSAVAT
N 190 (5899) 30 iyul 2014



# Yaşıl zibilqabı

Zamin HACI
zaminhaci@gmail.com

**Bugünlərdə jurnalistlərin diqqətində əsasən 3 mövzu var idi: Gürcüstanda tutulan 3 ton milli heroinimiz, Şuşa icra başçısı Bayram müəllimin 1 milyon qaçqın dəyərində villası, bir də Ramazanın hansı gündə qeyd olunması. Heroinin və villanın səsi batdı getdi, Ayın görünməsini də rəsədxana həll elədi, camaat razı qaldı. Xüsusən son məsələ sevindiricidir, heç olmazsa dini bayramlara görə ildə bir-iki dəfə uca millətimiz başını qaldırıb göydə Ayı axtarır. Yoxsa ilin qalan günlərində ancaq başı aşağı gəzirlər, guya hansısa suçun yiyəsidirlər. Ən çox eşitdiyimiz sözdür: "Başını aşağı sal, dolan".**

Mən bu Bayram müəllimin villası söhbətində bir intervü də oxudum, fikirləşdim ki, ey gidi dünya, gör bu xalq kimləri pullandırıb, varlandırıb, bunun cibinə girmək yaqin bütün dinlərdə halal buyurulubdur. Söhbət gedir ATV-nin keçmiş şefi Tağı İbrahimov adlı şəxsdən. Tağı müəllim televizyonu verib çıxıb gedibdir hansısa başqa ölkəyə. İndi jurnalist buna zəng vurub, deyir Tağı müəllim, bəlkə villanı satmağınızdan da danışaq. *(Guya televizyonu necə almışdı, necə verib, bunu jurnalist çox qəşəng bilir).* Əlbəttə, nə işimizə qalıb, mal onların, televizor onların, baxmadığımız kanalın problemindən bizə nə? Mənə intervüdəki bir hissə çox məzəli gəldi.

Sitat: "Mən ümumiyyətlə intervü vermirəm. 12 il televiziya, media-holdinq rəhbəri oldum, bir adam intervü verməyimi, şəklimi görüb? Yox. Mən müsahibə verməyi xoşlamıram".

Əla söhbətdir. Televiziya rəhbəri intervü verməkdən elə danışır sanki bu, kimisə yerə yıxıb qulağını dişləməkdir. Ya da yolu keçən qocaya qaçıb daldan təpik vurmaqdır. Nə bilim, qonşunun pişiyini boğmaqdır və sairə. Görün indi bunun media-holdinq rəhbərliyi necə olub ki, bir nəfər də şəklini çəkə bilməyibdir. Casus kimi işləyirmiş. Holdinqə divarla, kəndirdən tutub dırmaşırmış, içəri hansısa jurnalist girəndə paraşütlə pəncərədən hoppanırmış.

O cümlədən bunun media-holdinqi də 12 il ərzində bir dənə də normal insandan intervü almayıbdır, çünki şef intervüyə pis baxırmış... Ya da ola bilsin Tağı müəllim təvazökar adamdır, ancaq başqalarının danışığına qulaq asırmış. Kim bilir... Qəlbimin ağrısını kim bilir-zad...

Bunlar hamısı vaxtında həllini tapacaq, əsas odur Binəqədinin icra başçısı Xaləddin müəllimin 2015-ci il Avropa oyunları münasibətiylə başlatdığı "Təmiz Binəqədi" layihəsi uğurla davam etsin. Mən fikir vermişəm, layihə çərçivəsində Xaləddin müəllim bütün Binəqədi ərazisindəki zibil qablarını yaşıl rəngə boyatdırıb, hamısının üzərinə "Təmiz Binəqədi" şüarı yapışdırıb. Ancaq zibil daşıyanların layihəyə laqeyd münasibəti üzündən rayonun bəzi ərazilərində zibil qablarının "Təmiz Binəqədi" yazılan hissəsi arxada, divar tərəfdə qalır. Bəzilərində isə şüar qopub düşübdür. Yaxşı olar əlaqədar təşkilatlar tədbir görsünlər, zibil daşıyanların maariflənməsi üçün Prezident yanında ZDMİDMİVF fondundan qrant layihələri ayrılsın.

Ancaq ümumi götürəndə "Təmiz Binəqədi" layihəsi üçün zibil qablarına yaşıl boya çəkilməsi alqışa layiqdir. Bu, təbiətə qayıdış, kainatla harmoniya, qalaktika ilə filarmoniya təsiri oyadır. Axı yaşıl həyat rəngidir, yaşıllıq, ağaclıq deməkdir! Bununla Xaləddin müəllim izah edir ki, Binəqədidə hətta zibil qabları da atmosferə oksigen verir, karbon qazını isə udurlar!

Məncə, bu yaşıl rəngi başqa sferalarda da tətbiq eləmək məqsədəuyğun olardı. Xahiş edirik Xaləddin müəllim Biləcəri-Binəqədi-Balaxanı dairəvi-sinusiodal-kotangensik avtomobil yolunu da yaşıl boyasın, gözümüz sevinsin, könlümüz açılsın. Rayon zəhmətkeşləri adından *(o cümlədən Zəngilan və Füzuli qaçqınları bu müraciətə qoşulur)* söz veririk ki, həmin yol yaşıl boyansa orda gedərkən qurbağa kimi quruldayarıq.

Təki dövlətçilik möhkəmlənsin!

---

**Qərb Rusiyaya növbəti zərbələr endirməyə hazırlaşır. Kreml Krımı işğal etməklə özünü olduqca çətin duruma salıb. ABŞ, Britaniya, Fransa, Almaniya, İtaliya liderləri iyulun 28-də telefonla danışıblar və Rusiyanın Ukraynadakı roluna görə Rusiyaya qarşı yeni sanksiyaların qoyulmasına razılaşıblar. Fransa prezidentinin ofisi bəyanat yayıb ki, "5 lider Rusiyaya qarşı yeni tədbirlər niyyətini təsdiqləyib".**

Azər RƏŞİDOĞLU



# Rusiyanın "yumşalan" diplomatiyası

Yeni sanksiyaların nədən ibarət olduğu barədə heç nə deyilmir. Fransa prezidentinin ofisinin bəyanatında o da deyilir ki, liderlər Rusiyanın separatçı yaraqlılara hərbi dəstək verib-verməməyini izləyəcəklər.

Göründüyü kimi, Rusiya Qərblə "soyuq müharibə"nin yeni mərhələsinə qədəm basır.

Bu baxımdan, Kreml rəsmi Bakı ilə münasibətlərindəki gərginliyi nisbətən aradan qaldırmaq istəyir. Lakin Moskva Bakını diz çökdürmək arzusundan da əl çəkməyib.

Moskva Cənubi Qafqazın Rusiyaya məxsus olduğunu əməldə sübuta yetirmək istəyir.

V.Putin Rusiyanın Azərbaycana ərazicə daha yaxın olduğunu və bu coğrafiyanın Moskvaya məxsus olduğunu nümayiş etdirir.

Azərbaycanın Avrasiya İttifaqına qoşulması, Rusiya qoşunlarının Dağlıq Qarabağa yerləşdirilməsi, Qərblə enerji layihələrinə son verilməsi kimi məsələlərin Kreml üçün əsas prioritet olduğu bəllidir.

Kreml üçün ən əsas tələb Azərbaycana rus qoşunlarının yeridilməsidir. Moskva bu tələbindən geri durmaq fikrində olmadığını dəfələrlə bəyan edib. Azərbaycanda hərbi mövcudluq Cənubi Qafqaz və Orta Asiyaya nəzarət imkanı verir. Yalnız buna nail olmaqla Kreml Ağ Evə yumruq silkələyə bilər. Cənubi Qafqazın isə əldən çıxması Vaşinqtonun İrana təzyiq mexanizmlərini əsaslı dərəcədə azalda bilər.

Moskva həmçinin əmin olmaq istəyir ki, İrana qarşı Qərb tərəfindən hərbi müdaxilə olarsa, Azərbaycan öz ərazilərini Amerika qoşunlarına təqdim etməyəcək.

Lakin Moskva son günlər Bakıya qarşı nisbətən yumşaq siyasət aparır. Ehtimal etmək olar ki, hansısa məsələlərdə Bakı qərarını dəyişib və artıq Moskvaya "hə" deyib. Lakin ictimai rəyə bunu təlqin etmək lazımdır. Dünənə qədər Rusiyanı lənətləyən rəsmi təbliğatın birdən-birə iki ölkə arasında iqtisadi əməkdaşlığın artırılmasını vurğulaması, rus millətçisi, Azərbaycan xalqının qəddar düşməni Vladimir Jirinovskini mədh etməsi də Kremlin tələblərinə Bakının razılıq vermək jesti kimi də dəyərləndirilə bilər.

Lakin bütün bunlar aralıq müddətinin diplomatiyası kimi dəyərləndirilməlidir. Azərbaycan məmurları maliyyə və siyasi baxımdan məhz Qərbdən asılı vəziyyətdədir. İstəsələr belə, Qərbə arxa çevirə bilməzlər. Kremldə də anlayırlar ki, perspektiv planda ruslar Azərbaycanı itiriblər və Bakı artıq heç bir zaman Moskvanın forpostu olmayacaq. Odur ki, Bakının Rusiyaya doğru bir addım atması da Kremlə bu mərhələdə kifayət edir. Kreml "Ukrayna böhranı" zamanı acınacaqlı duruma düşdü və Putin Vaşinqtona əzələsini nümayiş etdirmək istəyir.

Ehtimal etmək mümkündür ki, Moskva belə bir ssenarinin işə düşməsini arzulayır - Bakı Moskvaya doğru cəmi bir addım atır, Kreml isə Bakını müdafiə etməyə, ona qarşı olduqca sərt münasibətini yumşaltmağa başlayır.

Əslində Rusiya Avrasiya İttifaqına qoşulmağı təklif etməklə Şərq Tərəfdaşlığı ideyasına balta çalır. Odur ki, Qərb siyasətçiləri Rusiyanın Bakı ilə anlaşa bilməsinin bölgə və Qərbin maraqları üçün təhlükəli olduğunu bəyan edirlər. Bu baxımdan ehtimal edə bilərik ki, rusların "yumşaq diplomatiyası" uzun müddət davam etməyəcək.

O da mümkündür ki, növbəti il Rusiya-Azərbaycan münasibətlərində ən gərgin illərdən biri olacaq. Vaşinqton ehtiyat edir ki, Bakı Moskva qarşısında geri çəkilə bilər. Odur ki, Amerika enerji layihələrinin təhlükəsizliyini təmin etməyə məhkumdur. Bu baxımdan 2015-ci ildə keçiriləcək parlament seçkilərində ABŞ-ın Azərbaycanda mövqelərini möhkəmləndirməyə can atacağını təxmin edə bilərik. Bunu Kreml də anlayır və odur ki, Moskva da Azərbaycandakı parlament seçkilərinə artıq indidən hazırlaşır...

---

# Qərbin sanksiyaları Azərbaycanı da vurmağa başladı

## Sanksiyalara məruz qalması gözlənilən VTB-nin ölkəmizdə törəmə bankı fəaliyyət göstərir

**Avropa İttifaqı iyulun 29-u səhərdən etibarən Rusiyaya qarşı sanksiyaların üçüncü fazasına dair gərgin müzakirələrə başlayıb. Virtualaz.org saytı Qərb mənbələrinə istinadla xəbər verir ki, Ukrayna ətrafında böhranın başlamasından bu yana ilk dəfə Avropa İttifaqı (Aİ) Rusiyaya qarşı iqtisadiyyatın bütöv sektorlarına istiqamətlənmiş sanksiyalar müzakirə etməyə başlayır. Siyahıya Azərbaycanda da filialı olan "Vneştorqbank" (VTB) qrupu daxil edilib.**

Məlumata görə, sanksiyalara dair müzakirələr Avropa İttifaqına üzv ölkələrin daimi nümayəndələrinin Komitəsində (Coreper) keçirilir. Komitə Rusiyaya qarşı maliyyə, silah, ikili təyinatlı məhsullar və energetika sanksiyalarının tətbiqinə dair paketi müzakirəyə çıxarıb.

Bundan əvvəl - iyulun 28-də axşam məlum olub ki, Fransa, Almaniya, İtaliya, Böyük Britaniya və ABŞ liderləri öz aralarında apardıqları telefon danışıqlarında Rusiyaya qarşı sanksiyaların siyahısının genişləndirilməsinə dair razılığa gəliblər. Səbəb Moskvanın Ukraynanın şərqində fəaliyyət göstərən separatçılara silah dəstəyini davam etdirməsi və beynəlxalq birliyin çağırışlarına məhəl qoymamasıdır.

Avropa Komissiyasının rəsmisi Conatan Todd bildirib ki, Qərb ölkələri Rusiyaya qarşı yeni sanksiyalar paketini bu həftə ərzində təsdiqləməyə hazırlaşırlar. Daimi nümayəndələr komitəsi sanksiyaları razılaşdırsa, məsələ təsdiqlənmək üçün Avropa İttifaqı Şurasına təqdim ediləcək. Sanksiyaların şura tərəfindən razılaşdırılması və qüvvəyə minməsi proseduru iyulun 30-da axşamadək başa çata bilər.

Hələlik sanksiyaların yeni dalğasının tətbiq olunacağı şəxslərin və şirkətlərin adlarına dair heç bir rəsmi informasiya yoxdur.

"The Wall Street Journal" diplomatik qaynaqlara istinadən xəbər verir ki, "qara siyahı"ya beş nəfər və iki bank daxil olacaq. Qəzet bu bankların "Sberbank" və "VTB Group" olacağını yazır.

Bildirilir ki, sanksiyalar bu maliyyə institutlarının imkanlarını kəskin şəkildə məhdudlaşdıracaq. Avropa Komissiyasının hesablamalarına görə, Rusiyanın sektoral sanksiyalardan iki il ərzində 100 milyard dollar itirəcəyi gözlənilir. Eyni zamanda Avropa İttifaqının özü də bu sanksiyalardan ciddi ziyan çəkəcək.

Qeyd edək ki, sanksiyalara məruz qalması gözlənilən VTB-nin Azərbaycanda da törəmə bankı fəaliyyət göstərir. "Bank VTB" (Azərbaycan) ASC-nin səhmdarları "Bank VTB" ASC və "Ata Holding" ASC-dir. "Bank VTB" (Azərbaycan) ASC korporativ biznes, kiçik biznes və fərdi müştərilərə xidmətlər göstərir. Bu gün bank 6 filial və baş ofisdə yerləşən müştəri xidmətləri idarəsi ilə təmsil olunub.

## Qara kabus sərhədlərimizin bir addımlığında

**Müqəddəs islam dinini öz bildiyi kimi təbliğ edib gözdən salan, günahsız müsəlmanlara qarşı hər kəsi şoka salacaq qəddarlığı və rüsvayçı fətvaları ilə gündəmdən düşməyən "İraq-Şam İslam Dövləti" (İŞİD) qruplaşması öz işindədir. Bəzi böyük güclərin əlində bəlkə də özünün də xəbəri olmadan siyasi alətə çevrilən terrorçu hörgüt ciddi müqavimətlə üzləşmədiyindən, getdikcə daha qorxunc əməllərə həvəslənməkdədir.**



# Türkiyə üzərindən Azərbaycana İŞİD təhlükəsi

İki qardaş ölkə arasına məzhəb ixtilafı salmaq istəyən məkrli qüvvələr fəallaşıb; İstanbulun neçə-neçə məscidi terrorçu qruplaşmanın nəzarəti altındadır, bu məscidlərdə aldadılmış azərbaycanlılar təlimdən sonra Suriyaya ölümə göndərilirlər; bir xəvaricdən şok təhdid: "İraqda şiələri çox yaxşı gəbərdirlər, Türkiyədə də başlansaydı..."

Bu qurumun İslama, ümmətə hər hansı aidiyyətinin olmadığı İsrailin Qəzzada törətdiyi son qətliamlara susqun reaksiyasından bir daha bəlli oldu. İŞİD-in böyük güclərin strateji maraqlarına cavab verməsi bugünlərdə Qərb mətbuatında gedən analitik yazıların birində növbəti dəfə özünü göstərdi. Məqalədə deyilir ki, artıq nə Yaxın Şərq əvvəlki Yaxın Şərq, nə də İraq və Suriya əvvəlki bütöv dövlətlər olmayacaq; çünki qüdrətli güclərin neftlə zəngin bölgənin enerji resurslarının təzədən bölüşdürülməsinə, "müstəqil Kürdüstan" yaratmağa yönəlik böyük planı sonuncu fazaya girib.

Görünən, sezilən odur ki, İŞİD-in başəriyyət əleyhinə əməlləri əsla ümmət maraqlarından yox, fərqli dünya güclərinin maraqlarından qaynaqlanır və İslam birliyini sarsıtmağa, dinimizi dünyada gözdən salmağa hesablanıb. Bunun isə vaxtilə dünyada vəhhabi təriqətinin əsasını qoymuş məlum mərkəzlərin uzaqgedən hədəflərinə uyğun gəldiyi şübhə doğurmur.

İslamafob qüvvələrin, türk düşmənlərinin məsələdə bəzi başqa, qorxulu hədəflərinin olması da istisna deyil. Söhbət son illər əlaqələri durmadan möhkəmlənən iki qardaş dövlət - Türkiyə və Azərbaycan arasında israrla məzhəb ixtilafı yaratmaq istəyindən gedir. İndilikdə bu plan real görünməyə bilər, amma unutmaq olmaz ki, İŞİD-in xilafət xülyaları da dünənədək ciddi sayılmırdı...

***

Təhlükəyə dair siqnallar isə artmaqdadır. Məsələn, bu arada bəlli olub, terrorçu qruplaşma Türkiyənin İstanbul şəhərində bəzi məscidləri artıq "işğal" edib. O da bildirilir ki, aldadılmış Azərbaycan vətəndaşlarının həmin məscidlərdə beynini yuyaraq, Suriya və İraqa yola salırlar (virtualaz.org). Məlumatı Türkiyədə cəfərilər təriqətinin (şiəliyin qolu) liderlərindən olan, Əhlibeyt Alimləri Dərnəyinin başqanı Hasan Kanaatlı "Cümhuriyyet" qəzetinə verib.

**Kanaatlı deyib ki, İŞİD İstanbulun Fatih, Ataşehir. Esenyurt və Bağcılar bölgəsində bir sıra məscidləri nəzarət altına alıb. Azərbaycandan gətirilən gənclər bu məscidlərdə təlimatlandırıldıqdan sonra Suriyaya ölümə göndərilirlər. Onun sözlərinə görə, Türkiyə şiələri üçün İŞİD təhdidi getdikcə artır:** "İnsanlarımız özlərinin təhlükəsizliklərini özləri təmin etmək istəyirlər. Deyirlər ki, qadınlarımıza təlim keçək, silahlanaq, növbə çəkək, bunları təqib edək. Biz mane oluruq. Daxili işlər naziri Afkan Aladan görüş istədik, ancaq 10 gündür cavab ala bilmirik. Bizi qəbul etsəydi mühafizə istəyəcəkdik".

Bir neçə gün əvvəl isə cəfərilərin Məhəmmədiyyə məscidinə hücum olub və dağıdılıb. Bu hücumun İŞİD tərəfindən həyata keçirildiyi təxmin edilir. Dərnək başqanı deyib ki, hadisədən əvvəl İŞİD üzvlərinin onları necə hədələdiyini eşidiblər. ""Sizə burada azan oxutmağa imkan verməyəcəyik" deyiblər. İŞİD-in güclü olduğu bölgələrdən biri də Fatihdir. Bağcılarda mağaza açıblar, şiələr əleyhinə broşüralar paylayırlar. Ataşehir səmtində dərnəklər qurublar. Medinə camisi mərkəzləri onların nəzarətindədir. Azərbaycandan gətirdikləri gəncləri orada 2-3 gün qonaq edirlər, təlimat keçib Suriyaya göndərirlər. Cübbə geyindirirlər. Ötən gün Suriyadan birinin cənazəsi gəldi. Ataşehirdən idi, iki uşağı vardı. Dövlətin bu cür işlərdən xəbərinin olmaması mümkün deyil" - deyə cəfəri lider vurğulayıb.

H.Kanaatlı onu da qeyd edib ki, bir gün evinin balkonunda oturanda küçədən keçən vəhhabilərin "Suriyada, İraqda həmd olsun, şiələri çox yaxşı gəbərdirlər. Burada da başlasaydı..." deyə ona sataşdıqlarını eşidib. Şiə lideri əlavə edib ki, həyatı üçün narahatdır və mühafizəçilərlə təmin olunmasını istəyir.

***

Göründüyü kimi, Türkiyədə şiə təriqəti daşıyıcılarının və onların doğmalarının həyatına təhlükə kifayət qədər realdır və günü-gündən böyüyür. Burdaca xatırladaq ki, İŞİD-in hədəf aldığı ölkələr sırasında Türkiyə və Azərbaycan ön sırada gəlir. Və heç şübhəsiz, "xilafət" ssenarisi baş tutarsa, beynəlxalq təşkilatlar, Türkiyə terror qruplaşmasını durdurmaq, o cümlədən İstanbuldakı zəbt etdikləri məscidlərdən onları vurub çıxarmaq üçün əməli addımlar atmasa, təhlükə qardaş ölkə ərazisi ilə məhdudlaşmayacaq.

Bu üzdən rəsmi Ankara problemin olası uzantılarını, məsələnin Azərbaycanla münasibətlərə xələl gətirə biləcəyinin mümkünlüyünü ciddiyə alıb təsirli kontur-tədbirlər haqda, qardaş ölkədəki cəfərilərin can və mal varlıqlarının təhlükəsizliyini təmin edilməsi haqda indidən düşünsə, yaxşı olar. Sonra gec ola bilər.

**❑ Nurlan NADİRLİ**

# Rusiyanın Azərbaycanı da hədəf alan yeni qorxunc planı

## Moskva özəl ordu yaradır; onların potensial tətbiq yeri Qafqaz və Ukrayna olacaq; söhbət həm də rəngli inqilabları önləməyə yönəlik hazırlıqlardan gedir ...

**Rusiya hökuməti özəl təhlükəsizlik qüvvələrinin yaradılması planı üzərində işləyir. Ehtimal edilir ki, bu dövlətüstü strukturlardan siyasi həssas situasiyalarda istifadə olunacaq. Musavat.com-un məlumatına görə, bu haqda Benyamin Bidderin "Der Spiegel" alman nəşrində dərc olunan "Rusiya "Blackwater"i: Moskva özəl ordu yaradır" məqaləsində deyilir.**



Məqalədə bildirilir ki, Rusiya qanunvericiləri və hərbçiləri ölkəyə qonşu olan dövlətlərdə narahatlıq doğuran bir qanunverici akt üzərində işləyirlər: "Müvafiq işçi qrup təhlükəsizlik məsələləri ilə məşğul olacaq özəl müəssisənin yaradılması üçün zəmin hazırlayır. Rusiya KİV-ləri yazır ki, söhbət faktiki surətdə Amerika özəl hərbi kompaniyası olan "Blackwater"in *(bir neçə il öncə adı dəyişdirilərək "Academi" olub)* hansısa analoqunun yaradılmasından gedir. Artıq payızda parlament - Dövlət Duması bu təşəbbüslə bağlı qərar verməlidir".

**Müəllifə görə, layihənin Kreml tərəfindən müdafiə ediləcəyindən şübhələnməyə dəymir:** "Prezident Putin özəl hərbi müəssisələri "dövlətin birbaşa müdaxiləsi olmadan milli maraqların müdafiəsi üçün etibarlı alət" hesab edir. Qanunverici sənədə əsasən, özəl hərbi strukturlardan o yerlərdə istifadə olunması nəzərdə tutulur ki, orada nizami silahlı qüvvələrin iştirakı siyasi və hüquqi amillərə görə çətin və ya mümkünsüzdür. Bu hərbi strukturlar müstəsna olaraq keçmiş xüsusi təyinatlı zabitlər və əsgərlər hesabına komplektləşdiriləcək və Federal Təhlükəsizlik Xidmətinə tabe olacaq".

**Sənəd müəllifləri bu özəl qurum əməkdaşlarının ilk növbədə hara göndəriləcəyini gizlətmirlər:** "Bu - Ukraynadır. Parlamentarlar hesab edirlər ki, Qərb rusiyayönlü separatçılarla mübarizədə Ukrayna ordusuna dəstək verdiyi, bu məqsədlə Kiyevə altdan-altdan özəl ordular göndərdiyi üçün Moskva buna adekvat cavab verməlidir".

Təbii ki, Ukraynanın şərqindəki separatçılar arasında bu təşəbbüs canlı maraq yaradıb və onları xeyli ruhlandırıb: "Bu, bizə kömək üçün yaxşı vasitə olacaq". Separatçıların liderlərindən biri Denis Puşilin nəşrə açıqlamasında belə deyib. Bundan əlavə, özəl hərbi strukturların əməkdaşları lazım gələrsə, Rusiyanın Qafqazdakı ordu birləşmələrindəki əsgərləri, o cümlədən tanınmamış Abxaziya və Cənubi Osetiyadakı hərbçiləri əvəzləyə bilərdilər".

**Müəllifin toxunduğu daha bir maraqlı məqam:** "Bundan başqa, özəl ordunun əməkdaşlarının xidmətində Rusiya sərhədlərindən uzaqda olan ölkələr də maraqlı ola bilərdilər. Misal üçün, vaxtilə Liviyanın sabiq diktatoru Müəmmər Qəzzafi daxildəki rəqiblərini susdurmaq üçün rus və ukraynalı hərbi ekspertləri dəvət eləmişdi. Moskva bu plan üzərində işləməklə açıq-aşkar Amerika nümunəsinə əsaslanır. Məsələ ondadır ki, Vaşinqton artıq uzun illərdir ki, bütün dünya üzrə özəl ordulardan istifadə edir. Belə ki, Ağ Ev hökumətinin göstərişi ilə onun əməkdaşları Latın Amerikası ölkələrində narkotik ticarətinə qarşı mübarizə aparır, Əbu-Dabidə isə şah ailəsinin təhlükəsizliyinə cavabdehdir".

"Lakin "Blackwater"in imici İraqdakı hərəkətləri ilə güclü şəkildə korlanıb. Belə ki, onun əməkdaşları İraqda mülki insanlara işgəncə verilməsi və onların güllələnməsində iştirak ediblər. Bu barədə isə geniş ictimaiyyətə Wikileaks-in sayəsində məlum olmuşdu", - deyə müəllif fikrini tamamlayır.

***

Şübhə yox ki, Putin rejiminin yaratmaq istədiyi və "Blackwater"in analoqu olacaq bir hərbi qurum daha qorxulu şəkildə zühur edəcək. Azərbaycan xalqının milli maraqlarının da bundan zərər görəcəyi istisna deyil. Ən azı iki faktora görə: birincisi, Ermənistanda da Rusiya hərbi kontingenti yerləşir və Qarabağda yeni savaşın başlayacağı təqdirdə onların özəl *(əslində başkəsən)* ordu ilə əvəzlənəcəyi realdır.

İkinci yandan, sirr deyil ki, rəsmi Moskva öz köklü maraqlarının diktəsi ilə MDB məkanındakı avtoritar və diktatura rejimlərinin himayəçisi qismində çıxış edir. Yəni fors-major vəziyyətlərdə və ya rəngli inqilablar zamanı belə rejimlərə gizlicə keyfiyyətli hərbi dəstək vermək məsələsi. Yeri gəlmişkən, Rusiya Təhlükəsizlik Şurasının son fövqəladə toplantısında prezident Putin bununla bağlı kifayət qədər açıq mesaj verib.

**❑ Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 190 (5899) 30 iyul 2014

**Türkiyənin müxalifət partiyalarının 10 avqust prezident seçkisində vahid namizədi professor Ekmeleddin İhsanoğlu Türkiyənin ən böyük media quruluşlarından olan "Cümhuriyet" qəzetinə müsahibə verib. Müsahibəni qısa ixtisarla təqdim edirik.**

# "Məndən soruşurlar ki, indiyə qədər hardaydın"

## Ekmeleddin İhsanoğlu: "Xalqın sürpriz edəcəyinə inanıram"

***- İslam İşbirliyi Təşkilatının rəhbərliyindən gedəndən qısa zaman sonra gərgin bir seçki kampaniyasına başladınız. Bu tempə alışmısınızmı?***

- Gərgin çalışmaqla bağlı bir şikayətim yoxdur. Əksinə, çalışmayanda darıxan insanam. Son 9 ildə dünyanı 62 dəfə dövr etmişəm, 100-ə yaxın ölkəni ziyarət etmişəm. Ona görə də Türkiyəyə qayıdandan sonra gərgin iş qrafikindən çox məmnunam. Xalqla birbaşa təmaslar mənim üçün böyük təcrübədir. İnsanların diqqəti, sevgilərini, sayğılarını ifadə etmələri böyük bir həyəcandır. Açığı, mən bu ölçüdə gözləmirdim. İkincisi də ölkədə israrla dəyişiklik istəyən böyük bir təbəqənin olduğunu bilmirdim. Ona görə də 10 avqustda ciddi nəticələr olacağına inanıram. Çünki xalq gərginlikdən, cəbhələşməkdən, heçə sayılmaqdan bezib.

***- Təbliğat kampaniyasının müddəti azaldılıb, üstəlik, dəfələrlə bildirmisiz ki, namizədlərin mübarizə imkanları bərabər deyil. Çətin deyil ki?***

- Seçki prosesi çox ədalətsizdir. Ancaq Türkiyə ilk dəfə ədalətsiz seçki keçirmir ki?... Bu xalq nələr görüb. Xalqın böyük sürpriz edəcəyinə inanıram. Biz əlimizdən nə gəlirsə, hamısını edirik. Təqdir millətindir. Hədəfimiz seçicilərin 60 faizinin səsini almaqdır. Biz yola 2 partiya ilə çıxdıq, qısa zamanda sıralarımıza 10 partiya da qoşuldu. Ortada 3 namizəd var. Xalq onlardan hansının dövlətə daha yaxşı xidmət edəcəyini, xalqın bütünlüyünü qoruyacağını düşünürsə, ona da səs verəcək. Mən bu seçimin bizim lehimizə olacağını düşünürəm.

***- Sürətlə daxili siyasətin zirvəsinə yüksələ bildiniz. Prezident seçilməsəniz, daxili siyasətdə qalacaqsınızmı?***

- *(Gülərək)* Seçiləndə görəcəksiniz.

***- Sizin üçün "indiyə qədər harada idi" deyirlər. Sizin digər namizədlərdən fərqiniz nədir? Niyə vətəndaş sizi seçməlidir? Namizədliyiniz irəli sürüləndə sizi bəyənməyən seçici tanıdıqca sizi sevdimi?***

- Antalyada üzündən nur yağan ağ saqqalı bir insan məni qucaqlayıb dedi ki, mən müsəlmanam, dindaram, amma Atatürkçüyəm, səsimi sizə verəcəm. İnsanların inandığını görmək qürur verməklə yanaşı, ciddi bir məsuliyyət də yaradır. Oxşar sözləri İstanbulda da, Egey bölgəsində də, Qaradənizdə də, Orta Anadoluda da eşitdim. Mənə deyirlər ki, siz indiyə qədər hardaydınız, sizin kimi siyasətçiyə Türkiyənin çoxdan ehtiyacı var. Yəni ilk günlərdə "indiyə qədər hardaydı" sualı xalqla təmaslarımızdan sonra tonunu dəyişib.

***- Son illər Türkiyə siyasətində sərt sözlər gündəmdə idi. Siz alışmadığımız jestləri gündəmə gətirdiniz. Necə qarşılanır?***

- Biz seçki marafonunu başladandan demişdik ki, Türkiyənin ən uca məqamı üçün yarışa giririk, bütün addımlarımız bu məqama layiq olacaq. Bu yarışın qarşılıqlı təhqir tonuna köklənməməsi üçün boynumuza düşəni etdik. Yarışan şəxslər həm bir-birinə, həm də o məqama sayğılı olmalıdırlar. Artıq bu vəhşi, qaba ifadələrin siyasi ədəbiyyatdan yığışdırılması zamanıdır.

***- Amma baş nazir hələ də sizə "monşer" deyir, iqtidara yaxın media sizin haqqınızda əsassız iddiaları tirajlayır. Buna bir təpkiniz olacaqmı?***

- İqtidar qara piarla məşğuldur. Deyirlər ki, Çankayaya çıxsam Quranı yasaqlayacam, dindarlara əziyyət edəcəm. Mən müqəddəs kitabımıza həyatını həsr etmiş, bu yola xidmət etmiş, əsərlər yazmış, gənclər yetişdirmiş bir insanam. Biz hansı çağda yaşayırıq? İnsanların keçmişini araşdırmaq çox qolaydır.

***- Prezidentliyə namizəd Selahəttin Demirtaşla aranızda yumşaq dialoq oldu. Seçki ikinci tura qalsa, onunla görüşüb dəstək istəyəcəksinizmi?***

- Mən birinci turda seçkini qazanacağıma əminəm. Sizə xalqımızın böyük sürpriz edəcəyini dedim. Diyarbəkirə hər hansı siyasi bazarlıq üçün getməmişdim, orada yaşayan insanları bu ölkənin gələcəyini, millətin bütünlüyünü və rifahını necə gördüyünü anlatmağa getmişdim. Yarım saat mən danışdım, 3 saat da bölgə əhalisini dinlədim, bəzən onların təhrif edilmiş informasiyalardan qaynaqlanan suallarını bir-bir cavablandırdım. Sonda mənə "biz sizi tanımamışıq, seçkidə düzgün qərar verəcəyik" dedilər. Siyasətçinin vəzifəsi insanların qarşısına çıxıb öz siyasi intriqaları haqqında danışmaq yox, vətəndaşın nə istədiyini öyrənməkdir. Biz buna çalışırıq.

***- Ərdoğan bildirib ki, Çankaya köşkünə çıxanda frak geyməyəcək. Sizin frakla bağlı fikirləriniz nədir?***

- Bunlar detallardır. Bu məsələlərin üzərində mesaj göndərməyə belə dəyməz.

***- Müsəlman dünyası Ramazan bayramını qeyd edir, Ortadoğuda isə qanlar axmaqda davam edir. Sizin müsəlman dünyasına mesajınız nədir?***

- Cənab Allah bugünlərdə bizə əsir övladlarımızın geri dönməsini nəsib etsin, onlar bu bayramda ailələrinə qovuşsunlar.

Qəzzadakı durum, çox təəssüf, çox ağırdır. 2008-2009-cu ildə də eyni senari üzrə 1500 insan qətlə yetirildi, böyük dağıntılar oldu. Əslində bu dönəm biz daha yaxşı nəticələr ala bilərik. Çünki Fələstin dövləti tanınıb, BMT-yə müşahidəçi statusu ilə qəbul olunub. Beynəlxalq məhkəmələrə müraciət hüquqları yaranıb. Bu imkanlardan istifadə edilməsi vacibdir. Türkiyə olaraq biz Fələstinə bu məsələlərdə dəstək olmalıyıq. Uzunmüddətli atəşkəs elan edilməsi üçün ciddi bir vasitəçilik missiyasına ehtiyac var. Türkiyə bölgədə barışın əldə edilməsi üçün cəhdlərini əsirgəməməlidir.

***- AKP-nin namizədi olan Ərdoğan seçki kampaniyasına gələn yardımın miqdarını açıqlamır. Siz bu durumu necə dəyərləndirirsiniz?***

- Biz Allahın bildiyini quldan saxlamarıq. Allaha şükür, varımı, yoxumu kimsədən gizləmək fikrim yoxdur. Şəffaflıq istəyiriksə, birinci özümüz bu prinsipə əməl etməliyik. Təqdir və müqayisə isə hər zaman xalqa aiddir.

❑ **Hazırladı Aygün MURADXANLI**



# "Rusiya elitası dəstə-dəstə ölkədən köç edir..."

## Qərb mətbuatının yazdığına görə, Putinin yanlış Ukrayna siyasəti işgüzar dairələrdə də panik ovqat yaradıb; "Bir gün xalqı "Obama pis oğlandır" deməklə sakitləşdirmək çətin olacaq..."



**"Krımın Rusiyaya birləşdirilməsinə görə əhalinin ən müxtəlif təbəqələri Putini dəstəkləyir. Ancaq Rusiya elitası, belə görünür, fərqli düşüncədədir: onun bir çox nümayəndələri xaricə köç edir, üstəlik, bunu bacardıqca tez reallaşdırmağa çalışırlar".**

Musavat.com-un məlumatına görə, sitat "Die Welt" nəşrindəki məqalədən götürülüb. "Business İnsider" portalının yazdığına görə isə iş hətta o yerə çatıb ki, imkanlı rusiyalılar tarixçi-genealoqlara müraciət edərək ailə köklərində xarici rişələr tapmağa çalışırlar ki, xarici vətəndaşlıq almaq üçün əsaslar olsun. "Bunlar ilk növbədə o insanlardır ki, böyük paralar qazanıblar və indi onları itirməkdən qorxurlar" - deyir moskvalı genealoq Vladimir Paley.

**Rus ədəbiyyatını tədris edən müğənni Tatyana Konkova isə hesab edir ki, getdikcə daha çox insan, əsasən də azlığın təmsilçiləri Putinin kursu ilə razı deyillər.** "Mən əlbəttə ki, 90% rusiyalıların mövqeyini bölüşmürəm, eyni zamanda getdikcə Rusiyada özümü daha çox əcnəbi kimi hiss edirəm", - deyə Gürcüstana emiqrasiya eləməyə hazırlaşan Konkova söyləyib.

Qeyd edək ki, rəsmi məlumata görə, son il ərzində Rusiyanı 186 min nəfərdən çox adam tərk edib. 2012-ci ildə bu rəqəm 123 min, 2011 və 2010-cu ildə isə müvafiq olaraq 37 və 34 min nəfər olub. Ekspertlər isə real rəqəmlərin qat-qat böyük olduğunu düşünürlər.

Bundan əlavə, təlaş ovqatı Rusiyanın işgüzar dairələrində də hökm sürür. Belə ki, artıq keçən həftə bəlli olub ki, Rusiya milyarderlərinin çoxu panik əhvaldadır.

"Çoxlarına aydındır ki, Putinin Ukrayna siyasəti Rusiyanın dünyada izolyasiyasına və mümkündür ki, onun iqtisadiyyatının çöküşünə gətirəcək. Bununla belə, mümkün repressiyalardan dolayı qorxu üzündən praktik olaraq heç kim Putini tənqidə risk eləmir" - söyləyir Moskvadakı Siyasi Texnologiyalar Mərkəzinin rəhbəri İqor Buni.

Əlavə edək ki, Putinin Ukrayna siyasətindən narazılıq yavaş-yavaş Rusiya KİV-lərində də özünü büruzə verməkdədir. Ələlxüsus Malayziya sərnişin təyyarəsinin vurulmasından sonra dünyanın Kremlə münasibətdə daha sərt mövqe sərgiləməsi istət-istəməz yazılı və elektron medianın ovqatında da özünü göstərməkdədir.

Bundan başqa, Ukrayna ordusunun ölkənin şərqində separatçı qüvvələrə qarşı mübarizədə bir-birinin ardınca qazandığı hərbi uğurlar Rusiya siyasi elitasına və mətbuatına başqa yandan öz neqativ, daha doğrusu, ayıldıcı təsirini göstərməkdədir.

**Vəziyyətin ciddiliyini təbii ki, Rusiya müxalifəti də görür və nəticələri hesablamağa çalışır. Məsələn, müxalifət liderlərindən olan Boris Nemtsov öz facebook səhifəsində Putinin siyasətinin ölkəyə vəd elədiyi ağır sonuclar barədə yazdığı axırıncı statusda bildirir ki, xalqın Putinlə mifik anlaşmasının pozulacağı gün heç də uzaqda deyil.** "O zaman qocaların pensiyalarını vaxtlı-vaxtında almamasını, ərzaq məhsullarının bahalaşmasını insanlara Obamanın "pis oğlan" olması ilə izah eləmək çətin olacaq".

Bütövlükdə Rusiyanın praqmatik düşüncəli siyasətçiləri və ziyalıları Kremlin hazırkı avantürist rəhbərinin ölkəni siyasi bataqlığa saldığını indi daha aydın şəkildə başa düşürlər. Bataqlıqda istənilən hərəkət isə yalnız dərinə aparır. Əfsuslar olsun ki, sadə rus müjiki bu sonucu görmək iqtidarında deyil. Onun gözləri neoimperiya xülyası ilə yaşayan Putinin körüklədiyi velikorus xəstəliyi nəticəsində tutulub. Açılanda isə gec olacaq.

❑ **Siyasət şöbəsi**



# 1 rusu öldürənə 17, 18-ni öldürənə 7 il iş?

Zahid SƏFƏROĞLU
zahid.safaroglu@box.az

## Orxan Zeynalovla Qraç Arutunyanın etnik-dini mənsubluğunun Moskva məhkəməsinə təsiri haqda

**Biryulevo "qəhrəmanı" Orxan Zeynalovun məhkəməsi bitdi. Rusiya femidası onu rus Yeqor Şerbakovun qətlində suçlu bilərək 17 illik ciddi rejimli həbsə məhkum elədi. Bununla da Rusiya və Azərbaycan arasında ötən il az qala diplomatik qalmaqala səbəb olacaq sırf kriminal olaya Moskva məhkəməsi nöqtə qoydu. Amma qoydumu?**

Əlbəttə ki, hansı motivlə törədilməsindən asılı olmayaraq cinayət yolu ilə insanı həyatdan məhrum etməyə haqq qazandırıla bilməz. Amma etiraf edək ki, Zeynalovla bağlı təhqiqat sırf hüquqi xarakterdə də olmadı, məsələdə siyasi-etnik çalarlar özünü qabarıq şəkildə büruzə verdi - Orxan Zeynalovun saxlanılma səhnəsindən tutmuş, ta ona kəsilən, cinayətə adekvat olmayan kifayət qədər yüksək cəzaya, Rusiya KİV-lərində gedən birtərəfli yazılara və şərhlərədək.

Yəni eyni qətli tutaq ki, hansısa rus, yaxud xristian törətsəydi, şübhəsiz, ona 17 yox, uzaqbaşı 10-12 il iş kəsəcəkdilər. Orxan isə Şerbakovu xüsusi amansızlıqla öldürməmişdi, ona çoxsaylı bıçaq zərbələri endirməmiş və ya başını kəsməmişdi. Yaxud mərhumun cəsədini hissələrə parçalamamış, meyitini təhqir eləməmişdi ki, belə ağır cəza alsın. Bu, sadəcə olaraq, hər gün Rusiyada törədilən yüzlərlə adi qətl hadisəsindən biri idi...

Amma Moskva məhkəməsi, Rusiyanın millətçi-şovinist mediası olaya məxsusi rəng verib cinayətə qeyri-adekvat cəza kəsilməsi üçün əllərindən gələni elədilər. O mənada bəli, bu, həm də Orxan Zeynalova azərbaycanlı olduğu üçün qurulan siyasi məhkəmə idi. Heç bir ksenofobiyanın, millətçiliyin olmadığını iddia edən Rusiya tərəfi bununla bir daha nümayiş etdirdi ki, istər zərərçəkmiş ol, istərsə də cinayətkar, bu ölkədə azərbaycanlı olmaq bəri başdan sənin üçün ağırlaşdırıcı hal sayılacaq.

Sözgəlişi, dəfələrlə sübut olunub ki, Rusiyada qeyri-ruslara, ələlxüsus, gəlmə "qaralara", hətta vətəndaşlığı olan qeyri-ruslara qarşı cinayət hadisələrini ölkənin hüquq-mühafizə orqanları açmağa həvəs göstərmir, qətl hadisələrini belə başdan etməyə çalışırlar. Ona görə ki, "qaralar", müsəlman "etniklər" onlar üçün ikinci-üçüncü sort varlıqlar qismindədir.

İnsafən, belə yanaşma "demokratiya beşiyi" ABŞ-da da ara-sıra özünü göstərir. Misal üçün, ötən həftə nüfuzlu insan haqları təşkilatı olan "Human Rights Watch" ABŞ ədliyyəsini irqçilikdə suçlayan hesabat yaymışdı. Sənədə görə, Amerika ədliyyəsində hələ də irqi əlamətlərə görə diskriminasiya hallarına rast gəlinir. Sitat: "Birləşmiş Ştatlarda narkotiklərdən istifadənin səviyyəsi ağ və qara dərili vətəndaşlar üzrə təqribən bərabər olsa da, afroamerkanlar narkotikdən istifadəyə görə daha tez-tez həbs edilirlər. Onları həm də daha çox günahkar sayır və daha uzunmüddətli həbs cəzasına məhkum edirlər. ABŞ diskriminasiya ilə mübarizə aparır, ancaq rüsvayçı irqçi bərabərsizliyə gətirən siyasəti düzəltmək üçün az tədbir görür", - deyə hesabat müəllifləri qeyd ediblər.

Bununla belə, Amerikanı Rusiya ilə eyniləşdirməkdən də çox uzağıq. Daha bir nümunəyə görə. İş ondadır ki, ötən il Ermənistan vətəndaşı Qraç Arutunyan Moskva ətrafında idarə elədiyi "KamAZ"ı sərnişin avtobusunun üstünə sürməsi nəticəsində uşaqlar da daxil, 18 nəfərin həyatına son qoymuşdu. Bir neçə gün öncə məlum olub ki, dövlət ittihamçısı ona cəmi 7 il iş istəyib.

Başa düşürük, yol-nəqliyyat qəzası, təsadüf-məsələsi, filan... Amma sizi əmin edirik ki, sükan arxasında xristian, erməni yox, müsəlman, azərbaycanlı olsaydı, ona 7 yox, 17 il iş istəyəcəkdilər. Erməni isə rusa bir köynək yaxın, ermənilik isə "yüngülləşdirici hal" sayılır. Yoxsa ki, 1 rusu öldürənə 17, 18-ni öldürənə 7 il iş?..

# "Sovetski"də kütləvi söküntülər başladı

## Kompensasiya ilə razılaşan sakinlərin evləri uçurulur

**Bakının "Sovetski" kimi tanınan məhəlləsində verilən kompensasiya ilə razı olan vətəndaşların evlərinin söküntüsünə başlanılıb. "Yeni Müsavat"ın məlumatına görə, artıq Abdulla Şaiq və Əli bəy Hüseynzadə küçəsindəki evlərin bir çoxu hasarlanaraq sökülüb. Sakinlərdən verilən məlumata görə, söküntü işlərinə Yasamal Rayon İcra Hakimiyyəti nəzarət edir.**



Sözügedən küçədə yaşayan sakinlər qeyd etdilər ki, Yasamal Rayon İcra Hakimiyyətinin nümayəndələri qapı-qapı gəzərək sakinlərlə danışıqlar aparır. Çünki ərazi ayrı-ayrı tikinti şirkətinə satıldığından onlar icra hakimiyyətini sıxışdırmağa başlayıblar. Elə bu səbəbdən kompensasiya ilə razılaşan sakinlərin evləri dərhal sökülür.

Balababa Məcidov küçəsində evlərinin kvadratı az olan sakinlər isə bildirdilər ki, hökumətin onlara ayrıca bina tikilib mənzil veriləcəyinə inanmırlar. Onların sözlərinə görə, bir müddət əvvəl "Sovetski" sakinləri üçün Gəncə prospektində 810 mənzilli 16 mərtəbəli doqquz binanın tikiləcəyi deyilib. "DES Kosaltinq" şirkəti bu məqsədlə sakinlərdən pul da alıb. Amma sonradan Bakı Şəhər Prokurorluğunun apardığı araşdırmalar nəticəsində müəyyən edilib ki, şirkət dələduzluqla məşğul olur.





Yasamal Rayon İcra Hakimiyyətinin yaydığı son məlumata görə, "Sovetski" məhəlləsində evlərini müəyyən edilmiş şərtlərlə satmaq istəyən ailələrin sayı 2100-ə çatıb.

İndiyədək 3480 ünvanda daşınmaz əmlak obyektlərində dəqiq ölçü işləri aparılıb, 1575 mənzilin sahibi ilə razılaşma protokolu imzalanıb. Artıq 1452 əmlak sahibinin bank hesabına vəsait köçürülüb, söküntü ərazisinə düşən 726 yaşayış və qeyri-yaşayış sahəsi isə sökülüb.

**Yasamal Rayon İcra Hakimiyyəti nəzdində yaradılmış Köçürmə Komissiyanın sədri Səməd İslamov bildirib ki, hazırda köç davam edir, komissiyaya müraciətlər daxil olur:** "İlkin mərhələdə nəzərdə tutduğumuz, yəni inventarlaşma və ölçü işləri aparılmış yaşayış və qeyri-yaşayış sahələrinə nisbətdə bu gün əldə etdiyimiz razılaşma protokolları 47 faizdir. Yəni hansı ünvanlarda ki, biz ölçü və inventarlaşma işləri aparmışıq, həmin mənzillərin və qeyri-yaşayış sahələrinin mülkiyyətçilərinin 46-47 faizi artıq razılaşma protokolunu imzalayıblar. Bütün bunlar komissiyanın məqsədyönlü işlərinin, proseslərin şəffaflığı və vətəndaşların birbaşa iştirakı ilə ölçü, qiymətləndirmə işlərinin aparılmasının nəticəsidir. Biz bu gün artıq görürük ki, işlərimizin nəticəsi çox müsbətdir".

Məlumat üçün bildirək ki, "Sovetski" də sökülələcək evlər Bəşir Səfəroğlu, Çingiz Mustafayev, Vidadi, Mirzağa Əliyev küçəsi *(qalan evlər)*, Murtuza Muxtarov, Abdulla Şaiq, Zərgərpalan küçələrində yerləşir. Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən təqdim olunan plana görə, sökülən evlərin yerində hansısa bir yaşayış binası və ya obyekt tikilməyəcək. Evlər ərazidə salınacaq parka görə sökülür. Həm də evlərin bir çoxu köhnə və yöndəmsiz olmaqla yanaşı qəzalı vəziyyətdədir. Amma görünən mənzərə tamam başqadır. Sökülacək məhəllələr indidən ayrı-ayrı tikinti şirkətinə satılıb. Balababa Məcidov küçəsində sökülən evlərin yerində çoxmərtəbəli yaşayış binası tikilir. Sözügedən ərazinin bir hissəsi həmçinin hökumətin təqdim etdiyi park layihəsinə düşür.

**Hökumətin "Sovetski" ilə bağlı qərarı isə hələ də dəyişməz qalır. Bu ilin fevralında Yasamal Rayon İcra Hakimiyyətində Təşkilat Komitəsinin üzvləri ilə görüşdə baş nazirin müavini Abid Şərifov bildirib ki, məcburi qaydada köçürülmə olmayacaq:** "Allah eləməmiş, bir qəza baş versə, bu insanların axırı necə olacaq? Keçməyə yol belə yoxdur. Biz də yol infrastrukturunun yaxşılaşdırılması məqsədilə bu addımı atırıq. Kim istəyir köçsün, kim istəmir sağlıqla yaşasın".

A.Şərifov onu da bildirmişdi ki, satın alınması nəzərdə tutulan evlərin bir hissəsinin "kupça"larının olmamasına baxmayaraq, sakinlərin orada uzun müddət yaşaması və mərkəzə yaxınlığı nəzərə alınaraq, Bakı Şəhər İcra Hakimiyyətinə bu mənzillərin sahiblərinə ödəniş verilməsi barədə tapşırıq verilib.

Xatırladaq ki, ərazinin baş planın hazırlanması üçün bir ay vaxt qoyulmuşdu. O vaxt bildirilmişdi ki, sakinlərdən kim 1 kv.m üçün 1500 manat ödənilməsi təklifi ilə razıdırsa həmin vəsaiti alaraq, köçə bilər. Hər ailə başına iki aylıq 1000 manat məbləğində kirayə haqqı, ev əşyalarının daşınması üçün isə 400 manat veriləcək.

❑ **Fərahim İLQAROĞLU**
**Fotolar müəllifindir**

# İstifadəyə yararlı top mərmisi tapılıb



**Abşeron rayonu, Aşağı Güzdək qəsəbəsində döyüş sursatı aşkarlanıb. "Qafqazinfo" xəbər verir ki, Fövqəladə Hallar Nazirliyinin müvafiq qurumlarının mütəxəssisləri və xilasedicileri lazımi tədbirlərin görülməsi üçün hadisə yerinə cəlb edilib, aidiyyəti qurumlar məlumatlandırılıb.**

FHN-in mütəxəssisləri aşkarlanmış sursata baxış keçiriblər. Müəyyən olunub ki, bu, istifadəyə yararlı olan 1 ədəd top mərmisidir. Mərmi aidiyyəti üzrə təhvil verilib.

Xilasedicilər hüquq-mühafizə orqanlarının əməkdaşları ilə birlikdə əraziyə təkrar baxış keçirib və şübhəli əşya aşkar etməyiblər.



Orxan Zeynalov

# Diaspor lideri Orxan Zeynalovun 17 illik həbsindən danışdı

## "Bu qədər ağır cəza istənməsi həmin qətlin Rusiya cəmiyyətində yaratdığı rezonansla bağlıdır"


Söyün Sadıqov

**Xəbər verildiyi kimi, Moskva şəhər federal məhkəməsi Orxan Zeynalova 17 illik həbs cəzası verib. Rusiyada yaşayan diaspor lideri, Putinin ən yaxın tərəfdaşlarından hesab olunan Söyün Sadıqov həbs cəzasını moderator.az-a şəh edib.**

**O bildirib:** "Başqa insana qarşı cinayət törətmək hər şeydən öncə günahdır. Xüsusən də insanı həyatdan məhrum etmək bağışlanmaz günahdır. Hansı ki, həmin öldürülənin anası, atası, qardaş-bacısı, xalası-bibisi, əmisi-dayısı, rəfiqəsi və ya arvadı olanda bu çox ağır sarsıntılara səbəb olur. Birini həyatdan məhrum edəndə əvvəlcə bunun hansı ağır nəticələrə səbəb ola biləcəyini düşünməlisən ki, səni nə qanun, nə öldürülənlərin yaxınları bağışlamayacaq. Ona görə də Orxana verilən cəzaya görə Azərbaycanda anti-Rusiya ovqatının yaranmasını anlaya bilmirəm və bunu səhv addım hesab edirəm. Dövlətlərarası münasibətləri cinayətkara verilən qiymətlə ölçmək və sınağa çəkmək olmaz. Gəlin razılaşaq ki, Rusiya və Azərbaycan, ruslarla azərbaycanlılar arasında bu qədər yaxşı münasibətlər olduğu halda onu bir cinayətkara görə korlamaq doğru olmazdı.

Orxanın lazımi vəkillə təmin edilməməsi üzündən bu qədər ağır cəza alması iddiasına gəlincə, məndə olan informasiyaya görə, ilk gündən Azərbaycanın Rusiyadakı səfirliyi və Ümumrusiya Azərbaycanlıları Konqresi (ÜAK) Orxana bir yox, iki vəkil tutublar. ÜAK-ın icraçı direktoru İlqar Hacıyev pis vəkil deyil. Orxana prokurorun bu qədər ağır cəza istəməsi və hakimin də ona bu qədər ağır həbs cəzası verməsi, məncə, vəkillərin pis olmasıyla deyil, həmin qətlin Rusiya cəmiyyətində yaratdığı rezonansla bağlıdır. Xatırlayırsınızsa həmin qətldən sonra hadisə baş verən rayonda necə iğtişaşlar baş qaldırdı və millətçilər bundan istifadə edib "Pokrovski" bazasında, digər rayonlarda hansı hadisələri törətdilər. Bu da əhalinin ayağa qalxmasına səbəb oldu. Ona görə də əgər prokuror və hakim Orxana orta və ya aşağı müddətli cəza versəydi, Ukrayna hadisələrindən sonra ölkədə onsuz da millətlərarası münasibətlərdə yaranmış gərgin vəziyyətə əlavə təhlükə yarada bilərdi. Bütün bu faktorlar Orxana verilən cəzada həlledici rol oynadı.

Hesab edirəm ki, azərbaycanlılar və ruslar, Azərbaycan və Rusiya xalqları bu günədək bir-birinə hörmət etdiyi kimi bundan sonra da münasibətləri qoruyub saxlayacaq və ən əsası bu cinayət ikitərəfli münasibətləri korlamayacaq".

# Dünya mediasında hakimiyyət əleyhinə yazılar artıb

**Arif Hacılı:** "İqtidar dünya birliyinə meydan oxumaqdadır"

**Mehman Əliyev:** "İslahatlara və demokratik dəyişikliklərə ümid etmək olmaz"




**Son dövrlər dünyanın qabaqcıl mətbu orqanlarında yenidən Azərbaycan barədə tənqidi yazıların sayı artıb. Britaniya, Almaniya mətbuatı ölkədə siyasi repressiyalar, məhbuslar, narazılıqlar barədə ilginc faktlar yayırlar. Analoji hal "Eurovision -2012" müsabiqəsi Azərbaycanda keçirilən ərəfədə də baş vermişdi.**

Maraqlıdır, belə vəziyyətdən Azərbaycan müxalifəti, fəal ictimai kəsim necə yararlanmalıdır? Avropa mətbuatının yazdıqları siyasi mübarizədə necə əlverişli "silah"a çevrilə bilər? Hakimiyyət ona olan təzyiqlərə hansı formada cavab verəcək?

**Müsavat Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Arif Hacılı** bildirdi ki, beynəlxalq aləmdə Azərbaycanla bağlı tənqidi fikirlərin artması hakimiyyətin apardığı siyasətlə bağlıdır. Müsahibimiz xatırlatdı ki, "Eurovision -2012" ərəfəsində ölkədə xeyli siyasi məhbus vardı, sərbəst toplaşmaq azadlığı pozulurdu: "İndi də ölkə boyu repressiya dalğası mövcuddur. Dünya mediasının diqqətinin Azərbaycana cəmlənməsinin səbəbi də budur. Siyasi məhbusların azadlığa buraxılacağı gözlənilən ərəfədə Fərəc Kərimli və Sirac Kərimli həbs edilib. Müsavatın Tərtər rayon təşkilatının sabiq sədri Xəqani Məmmədovun həbsinə hazırlıq işləri gedir. O da qondarma ittihamlarla cinayət işinə cəlb edilib. Azərbaycan iqtidarı dünya birliyinə meydan oxumaqdadır".

**Müsahibimizin sözlərinə görə, beynəlxalq birlik qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməyən Azərbaycan iqtidarı bununla da özünü hədəfə çevirir. A.Hacılı dedi ki, İ.Əliyevin açıqlamaları, ritorikası heç də demokratik dövlət quruculuğu janrında ritorikaya bənzəmir:** "Belə olan halda iqtidarın beynəlxalq media tərəfindən tənqid olunmasına təbii yanaşmaq lazımdır. Bu hallar Azərbaycan cəmiyyətini daha fəal olmağa sövq etməlidir. Düşünürəm ki, yaxın zamanlarda ölkədəki siyasi böhran aradan qalxacaq".

**"Turan" İnformasiya Agentliyinin direktoru Mehman Əliyev isə hesab etmir ki, bu situasiyadan yararlanmaq mümkündür. Onun sözlərinə görə, mübarizəni hər zaman aparmaq mümkündür, amma mübarizə aparanların da sayı çox deyil:** "Ölkədə siyasi aktivlər də azdır. Belə hesab etmirəm ki, indi münbit şəraitdir. Belə şərait hər zaman olub. Deməzdim ki, hansısa dalğa var və ya güclənib. Hansısa tənqidi materialların dünya mediasında yer alması təbiidir. Bu yaxınlarda Leyla Yunus tərəfindən olimpiadanın boykot edilməsinin fonunda bu cür materialların yayılmasına təbii baxmaq lazımdır".

**M.Əliyev bu cür tənqidi materialların hər hansı effekt verəcəyinə ümid etmir. Onun sözlərinə görə, indiyə qədərki tənqidlər, hesabatlar heç nəyi dəyişməyib:** "Bəlkə nəyisə dəyişib? Ölkədə demokratik əhval-ruhiyyə olub? Əksinə, vəziyyət pisləşməyə doğru gedib. Təcrübə göstərir ki, bu cür materiallara görə hansısa islahatlara və ya müsbət gəlişmələrə ümid etmək olmaz".

❑ **Sevinc TELMANQIZI**

# Deputatlar bayramı harada keçirdilər?

**Ramazan bayramı boyu hər kəs bu özəl günləri özünə xas şəkildə dəyərləndirdi. Kimi oruc tutdu, kimi bayramı evində, kimi də iş başında keçirdi. Maraqlıdır, bəs deputatlar mübarək ayda, bayramda nə etdilər?**

Milli Məclisin üzvü İqbal Ağazadə ilk növbədə bayram münasibətilə bütün müsəlman aləmini təbrik etdi. Bayram tətilini Nardarandakı bağ evlərində olduğunu söyləyən deputat başqa məkana getmədiyini söylədi.

**Deputat Fəzail Ağamalı** da KİV vasitəsilə Azərbaycan xalqını təbrik etdiyini dedi: "Artıq öz bayram təbrikimi xalqımıza ünvanlamışam. Bir daha qeyd edirəm ki, Ramazan bayramı müsəlman aləminin ən müqəddəs bayramlarından biri, hətta birincisidir. Bu bayram insanlara firavanlıq gətirən, humanizm aşılayan bayramdır. Bayramda bütün müsəlman dünyası əmin-amanlıq, sülh şəraitində yaşamağa üstünlük verir. Təəssüflər olsun ki, bugünkü gündə bunu demək mümkün deyil. Çünki bir sıra müsəlman ölkələrində bayramda da atəş səsləri eşidilir. Günahsız uşaq, qoca, qadınlar həlak olurlar. İnsan olaraq bu hadisələri gördükcə ləнət yağdırmaqdan özünü saxlaya bilmirsən. Bunlar hamısı ictimai-siyasi kataklizmlərdir. Allah bundan sonra hər ailəyə, millətə, dinindən, irqindən asılı olmayaraq əmin-amanlıq, xoş məramlar qismət eləsin. Bu əziz günlərdə Allah dualarımızı eşitsin. İnşallah, torpaqlarımıza qayıdış yolu açılar və biz tezliklə bu bayramı işğal altındakı torpaqlarımızda qeyd edərik. Sizi və qəzetinizin yaradıcı kollektivini də bayram münasibətilə təbrik edirəm".


**Fəzail Ağamalı:** "Dağ rayonlarını gəzirik"

**Bayram tətilindən istifadə edən Fəzail bəy hazırda gəzintidə olduğunu dedi:** "Şamaxı tərəfdə idim. Ordan başqa rayona səfər etmişik. Dağ rayonlarını gəzirik. Hər rayonda 1-2 gün istirahət edərək, yay günlərini keçiririk".


**Sabir Rüstəmxanlı:** "Mənim üçün ən gözəl bayram hədiyyəsi o oldu ki..."

**Bayramdan 3-4 gün öncə Yardımlı rayonunda olduğunu söyləyən xalq şairi, deputat Sabir Rüstəmxanlı isə hazırda yaradıcılıqla məşğul olduğunu bildirdi:** "Bu yaxınlarda Yardımlıda idim. Doğulub, boya-başa çatdığım Hamar kəndi istiqamətində çəkilmiş yolun açılış mərasiminə qatılmışdım. Mənim üçün ən gözəl bayram hədiyyəsi elə o oldu. Hazırda isə evdəyəm və yaradıcılıqla məşğulam".


**Qənirə Paşayeva:** "Ramazan ayı boyunca tez-tez Tovuzda oldum"

**Öz növbəsində Milli Məclisin xanım üzvü Qənirə Paşayeva qəzetimizə açıqlamasında deputat seçildiyi Tovuz rayonundan təzəcə qayıtdığını söylədi:** "Ramazan ayı boyunca tez-tez Tovuzda oldum. Bayramı da rayonda seçicilərimin arasında keçirdim. Bakıya iyulun 28-də qayıtmışam, inşallah, 2 gün sonra yenidən qayıdacağam".

**Xanım deputat əlavə elədi ki, seçiciləri ilə tez-tez görüşür:** "Hazırda Milli Məclis tətildədir. Ona görə də yaranmış boşluqdan səmərəli istifadə edib seçicilərimin yanında oluram, vaxtımın əhəmiyyətli hissəsini Tovuzda keçirirəm".

Biz isə öz tərəfimizdən bir daha hər kəsin bayramını təbrik edirik.

❑ **Fəridə ABDIYEVA**

# Ayxan Məmmədov iş axtarır

## Sevinc Babayevanın oğlu mətbuatla münasibətlərini kəsir

**Xəbər verdiyimiz kimi, "mandat alveri" qalmaqalının əsas fiqurlarından olan mərhum Sevinc Babayevanın oğlu Ayxan Məmmədov artıq azadlıqdadır. Girov müqabilində azadlığa buraxılan A.Məmmədov media işçiləri ilə hər hansı ünsiyyətə girmir. İlk günlər onun telefon zənglərinə dostları cavab verir və Ayxanın bir neçə gündən sonra danışmaq üçün uyğun olacağını deyirdi.**

Dünən isə əməkdaşımızın israrlı telefon zəngləri də A.Məmmədov tərəfindən cavabsız buraxıldı. A.Məmmədovun nənəsi, S.Babayevanın anası Zəhra Babayeva isə müxbirimizlə söhbətində ondan bir daha nəvəsi barədə heç nə yazmamağı xahiş etdi. Ailə adlarının daha mətbuatda hallandırılmasını istəmir və bunun onlara başağrısı yaradacağını düşünür: "Bu günə qədər yazdınız, çox sağ ol. Daha bizi narahat etməyin".

Əldə etdiyimiz məlumata görə, həbsdən yenicə çıxan A.Məmmədov hazırda evdədir və ailəsi ilə vaxt keçirir. S.Babayevanın oğlu iş axtarışındadır və bütün yaxınlarına, dostlarına işlə bağlı soraq salıb.

Xatırladaq ki, ittihama görə, Ayxan Məmmədov "Favorit" marketdə oğurluğa cəhd etdiyi üçün Binəqədi Rayon Məhkəməsinin hökmü ilə 3 il 6 ay müddətinə azadlıqdan məhrum edilmişdi. O, bu il iyunun 25-də həbs edilmişdi.

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 190 (5899) 30 iyul 2014

**Beynəlxalq Təhsil Mərkəzi**

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**

**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

**Elan**

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**

**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# Göyçay sakini deputatın atasından şikayətçidir

## Ceyhun Osmanlının icra başçısının müavini olan atasından prezidentə şikayət edildi





**Göyçay rayon Dövranlı kənd sakini Ələkbərova Bəsirə Həsən qızı redaksiyamıza müraciət edərək Göyçay Rayon İcra Hakimiyyəti başçısının müavini Yunis Osmanlı, Torpaq və Xəritəçəkmə Şöbəsinin müdiri Nofəl Fərzəliyev və Dövranlı kənd bələdiyyəsinin sədri Aydın Hüseynovdan şikayətçi olduğunu bildirib.**

Şikayətçi qeyd edib ki, 6.04 hektar torpaq sahəsi 1998-ci ilin 18 fevral tarixində Göyçay rayonu Aqrar İslahat Komissiyası tərəfindən həyat yoldaşına və ailə üzvlərinin mülkiyyətinə verilib. Ölçülər düz gəlmədiyi üçün 2001-ci ildə kənd bələdiyyəsi və mütəxəssislərin iştirakı ilə 2.44 hektar torpaq sahəsi ölçülərək akt tərtib edilməklə onlara verilib. Bundan sonra sxem tərtib edilib, Torpaq və Xəritəçəkmə Şöbəsində mülkiyyətə verilməsi qeydə alınıb.

"Həyat yoldaşım 2003-cü ildə dünyasını dəyişib, təkbaşına 7 qız, 1 oğlan övladı böyütmüşəm. Mənim əsas gəlir yerim bu torpaq sahəsidir, onu da əlimdən almaq istəyirlər. Qızlarımın hamısı ailə həyatı qurub, oğlum isə 2 həftə əvvəl hərbi xidmətə gedib. Hazırda tək yaşayıram və məmur özbaşınalığı ilə üz-üzə qalmışam" - deyə şikayətçi bildirdi.

**B.Ələkbərovanın sözlərinə görə, qanunla onun olan torpağı əlindən almaq istəyirlər:** "Təxminən 2 ay əvvəl Göyçay rayonu Dövranlı kənd bələdiyyəsinin sədri Aydın Hüseynov mənə bildirdi ki, istifadə etdiyin torpaqdan çıx, oraya müştəri tapmışam, satacağam. Onun bu sözlərinə bir o qədər əhəmiyyət vermədim, çünki mənə və ailə üzvlərimə məxsus torpaq sahəsinə müştəri taparaq satmaq istəməsi nə dərəcədə doğru ola bilərdi? O, bir müddət mənə heç nə demədi. Bir neçə gün əvvəl gördüm ki, əkin sahəmi bir neçə nəfər ölçür. Yaxınlaşıb soruşduqda mənə dedilər ki, bələdiyyə sədri Aydın Hüseynov bu torpağa Bakıdan müştəri tapıb, bölüb hissə-hissə satacaq. Mən dərhal Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Mənsur Məmmədovun qəbuluna getdim və şikayətimi bildirdim. O da cavabında mənə dedi ki, sənin torpağını tanımıram, nə dərəcədə haqlısan bilmirəm. Bir də ki, bələdiyyə satmağa başqa yer tapmır ki, gərək sənin yerini satsın? Mən izah etdim ki, mənə və ailə üzvlərimə məxsus bu torpaq sahəsi bizim dolanışıq yerimizdir. Bələdiyyə sədri isə əsassız bəhanə gətirir ki, bu yer bizə məxsus deyil, buradan qanunsuz istifadə edirik".

**B.Ələkbərova deyir ki, 2 hektar yonca və taxıl sahəsini ona çox görürlər:** "Daha sonra əraziyə Göyçay Rayon İcra Hakimiyyəti başçısının müavini Yunis Osmanlı, Torpaq və Xəritəçəkmə Şöbəsinin müdiri Nofəl Fərzəliyev və başqa şəxslər gələrək baxış keçirdilər. Yunis Osmanlı mənə dedi ki, nə olsun vaxtilə bura sizə verilib, indi əlinizdən alınması məsləhətdir. İndiyə qədər torpaqlardan istifadə etmisən, qızlarını da köçürmüsən, indi torpağa nəyinə lazımdır? Bu bir icra başçısı müavininin Azərbaycan vətəndaşına dediyi sözdür. Özü Ağdaşın Kükəl, yoldaşı isə Göyçay rayonunun Hüngütlü kəndinin yarısını alıb. Oğlu Ceyhun Osmanlı deputatdır, bir oğlu rəis işləyir, varlı həyat tərzi sürürlər, kimsə onlara deyirmi ki, var-dövlət nəyinizə lazımdır? Amma mənim 2 hektar yonca və taxıl sahəmi çox görürlər".

**B.Ələkbərova qeyd etdi ki, baş verənlərlə bağlı Ədliyyə Nazirliyinin Göyçay Regional Şöbəsinə də şikayət edib:** "Oradan da mənə dedilər ki, 2001-ci ildə bələdiyyə və torpaq şöbəsi başınızı aldatmaq üçün sizə sənəd veriblər, o torpaq sizin deyil. Sonradan mənə məlum oldu ki, Göyçay Regional Şöbəsi bu işdən xəbərdardır, bizim torpaqlarımızın başqalarına satılması üçün bələdiyyə sədri Aydın Hüseynovla razılığa gəliblər. Artıq mən kimdən-kimə şikayət edəcəyimi bilmirəm. Son ümid yerim budur ki, mətbuat vasitəsilə ölkə prezidenti cənab İlham Əliyevə müraciətim çatsın. Tənha yaşayan bir qadınam deyə məni tək görüblər, əmlakıma hücum çəkib qanunsuz olaraq öz torpağımdan çıxarmaq istəyirlər. Cənab prezident, xahiş edirəm bu işə bir əncam çəkəsiniz".

❑ **Məhəmməd TÜRKMƏN**




**Elan**

**Şamaxı şossesi, MEXKALON -23-də 140 kv metr, hamam tualeti içəridə olan 2 otaq və zalı, mətbəx mebeli, qarajla birlikdə kupçalı və təmirli ev satılır.**

**Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə telefonu: 055 - 211-78-41**




# Bayram məzuniyyətinə gəlmiş əsgəri maşın vurub öldürdü

**Kürdəmir rayonunda avtomobil qəzası baş verib, ölən və xəsarət alan var. APA-nın məlumatına görə, hadisə Kürdəmir şəhərinin Babək küçəsində qeydə alınıb. Rayon sakini, 1971-ci il təvəllüdlü Rzayev Baba Hüseynağa oğlu 10-BN-232 dövlət nömrə nişanlı, "QAZ 2410" markalı minik maşını ilə hərəkətdə olarkən qəflətən idarəetməni itirib və yolun kənarındakı səkidə hərəkət edən piyadanı - 1996-cı il təvəllüdlü Atayev Rəşadət Yaşar oğlunu vurub. "N" saylı hərbi hissəsinin əsgəri olan Rəşadət Əsgərov aldığı ağır xəsarətlər səbəbindən hadisə yerində dünyasını dəyişib. Maşın isə ağaca çırpılıb və sürücü Baba Rzayev müxtəlif dərəcəli bədən xəsarəti ilə Kürdəmir mərkəzi rayon xəstəxanasına yerləşdirilib.**

Qeyd edək ki, mərhum əsgər Rəşadət Atayev 7 ay əvvəl hərbi xidmətə gedib. Bakı şəhərində hərbi xidmətdə olan əsgər Ramazan bayramı ilə əlaqədar yaşadığı rayona məzuniyyətə gəlibmiş.

Faktla bağlı Kürdəmir Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

# Daha bir ana doğuş zamanı öldü

**Azərbaycanda doğuş zamanı daha bir ana ölümü baş verib. APA-nın məlumatına görə, hadisə 3 saylı Şəhər Klinik Xəstəxanasının doğum şöbəsində qeydə alınıb. Bakı şəhər sakini, 1984-cü il təvəllüdlü Nuranə Əliyeva doğuş üçün əməliyyata qaldırılıb.**

Əməliyyat nəticəsində uşaq ana bətnindən götürülüb. Lakin N. Əliyeva narkozdan ayılmayıb.

3 saylı Şəhər Klinik Xəstəxanasının doğum şöbəsindən APA-ya faktı təsdiqləyiblər.

Lakin ölümün səbəbləri barədə əlavə açıqlama verilməyib.

YENİ MÜSAVAT
N 190 (5899) 30 iyul 2014

# Avropada yanan "yaşıl işıq": Haaqa Məhkəməsi

## İnsan haqları məhkəmələri kimə nə vəd edir?

**Azərbaycanda haqqı tapdanan, ədalətsizliyə uğrayan aktiv ictimai kəsimin yolu Avropa Məhkəməsindən keçir. Hazırda Avropa Məhkəməsinə Azərbaycandan yüzlərlə iş göndərilib. "Filankəs Azərbaycana qarşı..." Adətən işlər də belə adlandırılır. Amma dünyada beynəlxalq hüquqların pozulduğu mərhələdə Haaqa Məhkəməsinin də köməyə gəldiyi qeyd edilir. Amma harda və necə?**



Haaqa Məhkəməsi də şikayət ünvanlarından biridir. Məhkəmənin saytında qeyd edilən məlumatlarda onun təyinatı dəqiq təsvir edilib. Beynəlxalq Ədalət Məhkəməsi-Birləşmiş Millətlər Təşkilatının ali məhkəmə orqanıdır. Beynəlxalq Məhkəmənin mərkəzi Hollandiyanın Haaqa şəhəridir, ancaq hakimlərin razılığı ilə başqa bir yerdə də toplantı keçirilə bilər.

**Haaqa Məhkəməsi vətəndaşlar üçün deyil, çünki...**

Beynəlxalq Məhkəmənin səlahiyyətləri ancaq dövlətlər arasındakı mübahisələrə aiddir. Məhkəmə adi şəxslərlə dövlət arasındakı və əlbəttə, adi şəxslər arasındakı mübahisələrə baxa bilməz. Və hətta dövlətlər arasındakı mübahisələrə də bütün tərəflərin razılığı ilə baxıla bilər. Məhkəmənin səlahiyyəti dövlət üçün məcburi yox, ancaq fakültətivdir. Məhkəməyə fakültətiv səlahiyyətin verilməsi qərarı San-Fransiskodakı gərgin mübarizədən sonra səs çoxluğu ilə (31-ə qarşı 14) qəbul edilib. Dövlətlərin mübahisələri məhkəməyə fakültətiv xarakterli həll üçün verməleri xüsusi olaraq özünü onda büruzə verir ki, Beynəlxalq Məhkəmənin statusunun 36-cı maddəsinin 1-ci bəndinə müvafiq olaraq "tərəflərin məhkəməyə təqdim etdikləri bütün işlər onun səlahiyyətinə aiddir...".

Beynəlxalq Məhkəmənin məcburi yurisdiksiyası saziş layihəsində dövlət tərəfindən ya tamamilə, ya hər hansı bir şərtlə, ya da beynəlxalq mübahisələrin konkret kateqoriyaları üzrə qəbul edilir. Beynəlxalq Məhkəmənin məcburi yurisdiksiyasının tanınmasında şərtlərin geniş tətbiq edilməsi onun fəaliyyət dairəsini əhəmiyyətli dərəcədə daraldır.

Qəbul edilmiş qaydaya uyğun olaraq, iddiaçı dövlət təqdim olunmuş mübahisənin mahiyyəti üzrə baxılması üçün məhkəmənin səlahiyyətini əsaslandırmalıdır. Bundan əlavə, mübahisənin mövcudluğu faktının və onun hüquqi təbiətinin sübuta yetirilməsi öhdəliyi də elə bu dövlətin üzərinə qoyulur. Bu maddənin pozulması iddianı mənasızlaşdırır və beləliklə də, BMT-nin Beynəlxalq Məhkəməsinin yurisdiksiyasının tətbiqini mümkünsüz edir.

Çoxlu sayda konvensiya və sazişlər mövcuddur ki, onlara müvafiq olaraq dövlətlər gələcəkdə məhkəmənin yurisdiksiyasını tanıyacaqlarını öhdələrinə götürürlər. Bunlara aiddir: iki dövlət arasında yaranacaq mübahisələrin hamısına və ya bəzi kateqoriyalarına aid olan ikitərəfli sazişlər, mübahisələrin bir və ya daha çox kateqoriyalarına aid olan çoxtərəfli konvensiyalar və sair *(statusun 36-cı maddəsinin 1-ci bəndi və 37-ci maddəsi).* Beynəlxalq Məhkəmə bəzi məhdudiyyətlərlə eləcə də beynəlxalq təşkilatların qərarlarının qanuniliyi üzərində dolayı nəzarəti həyata keçirə bilər, apelyasiya instansiyası rolunda çıxış edə bilər və beynəlxalq inzibati tribunalların qərarlarının yenidən baxılması üzrə arayış çıxara bilər.

**Orada ancaq bu məsələlərə baxılır...**

**Beynəlxalq Məhkəmə əsasən aşağıdakı məsələlərə baxır: (Statut 36.2)**

**- Hər hansı bir bəyamnamənin təfsiri;**

**- Beynəlxalq hüquqla əlaqədar hər bir məsələ;**

**- Beynəlxalq öhdəliyə zidd bir hərəkətin gətirdiyi hər növ zərər ilə əlaqədar məsələlər;**

**- Hər hansısa bir məsələnin Beynəlxalq Məhkəmənin səlahiyyətləri çərçivəsində olub olmaması ilə əlaqədar yaranan ziddiyəti yalnız Beynəlxalq Məhkəmə həll edir.**

BMT-in Beynəlxalq Məhkəməsində hər iş, bir qayda olaraq, iki mərhələdən - yazılı və şifahi mərhələdən keçir. Yazılı mərhələ adətən bir neçə ay davam edir, çünki hər tərəfdən uyğun yazılı izahatların - memorandumların təqdimatı tələb olunur. Bir qayda olaraq, iş iki dövlətin razılığının *(məhkəmədə işin araşdırılması haqqında barışığın)* məhkəməyə verilməsi ilə başlanır. Əgər dövlət məhkəmənin səlahiyyətinə tabe olacağı barədə öz üzərinə öhdəlik götürübsə iddiaçı dövlət tərəfindən birtərəfli yazılı müraciətlə ona qarşı iş qaldırıla bilər.

İş məhkəmədə dinlənilməyə hazır olduqda şifahi təhqiqat başlanılır. Bu mərhələ adətən bir neçə gün (nadir hallarda bir neçə həftə) çəkir. Tərəflər nümayəndələri vasitəsilə çıxış edirlər və qəyyumların və vəkillərin köməyindən istifadə edə bilərlər. Belə təhqiqatdan sonra məhkəmənin bağlı iclası keçirilir. Açıq iclasda isə ancaq məhkəmənin qərarı elan edilir. Qərar hakimlərin sadə səs çoxluğu ilə qəbul olunur, səslər bərabər olarsa sədr həlledici səsə malikdir.

Beynəlxalq Məhkəmə işlərin daha tez həlli üçün tərəflərin razılığı nəticəsində 5 nəfərdən ibarət dairə yarada bilər (Statut, 29. maddə). 1993-cü ildə Statutun 26.1 maddəsinə görə ətraf mühitlə əlaqədar işlərə baxılması üçün xüsusi dairə yaradilib. Buna baxmayaraq, bu dairə indiyə kimi heç bir işə baxmayıb.

Keçmiş Ümumdünya Məhkəməsi cəmiyyətin ən fəaliyyətdə olan institutlarından biri idi. Işlədiyi 18 ildə 32 ən ağır cinayətlərə dair hökm çıxarmış və 27 məsləhət rəyi vermişdir.

Heç bir ölkəni beynəlxalq məhkəmədə başqa tərəfi dinlənməyə məcbur etmək olmaz, lakin məhkəməyə müraciət edən hər hansı bir ölkə məhkəmənin qərarını qəbul etməyə hazır olmalıdır. Məcburetmə mexanizmi nəzərdə tutulmamışdır. Ayrı-ayrı vətəndaşlar onun hökuməti təqdim etdiyi hallarda müraciət edə bilər. Məhkəmə səs çoxluğu ilə qərar qəbul edir. Məhkəmənin səlahiyyətlərini Təhlükəsizlik Şurası təmin edir.

**Beynəlxalq Məhkəmə işləri 4 müxtəlif tipdə aparılır:**

*1. Şərq-Qərb arasında münaqişə;*

*2.Müstəmləkə əleyhinə mübarizə;*

*3. Regional daxili mübahisə;*

*4. BMT hüquqi səlahiyyətlərini müdafiə etmək.*

1980-ci illərdən başlayaraq Şimal-Cənub, bir qayda olaraq ABŞ ilə onun əleyhinə olan ölkələr arasında münaqişələr kimi yeni kateqoriyadan olan işlər baş vermişdir.

**Azərbaycanın tanıdığı qapı - Avropa Məhkəməsi...**

Bu baxımdan sıravi vətəndaşların Haaqa Məhkəməsinə müraciət etməsi perspektivi real görünmür. Avropa Məhkəməsinə isə Azərbaycan da daxil olmaqla, xeyli ölkələrin vətəndaşı müraciət edib. Azərbaycanın Avropa İnsan Hüquqları Məhkəməsində səlahiyyətli nümayəndəsi Çingiz Əsgərov dəfələrlə mətbuata bildirib ki, son 10 ildə Avropa Məhkəməsinə Azərbaycanla bağlı 5000-ə yaxın müraciət daxil olub. Bu şikayətlərin 97 faizi Avropa Konvensiyasının tələblərinə cavab vermədiyindən Avropa Məhkəməsi tərəfindən rədd edilib. İcraata götürülmüş 3 faiz müraciətin bir qismi Azərbaycan hökumətinə kommunikasiya edilib. Artıq 130-a yaxın şikayət üzrə müvafiq qərarlar qəbul edilib. Azərbaycanla bağlı çıxarılmış qərarların 50 faizi insan hüquq və azadlıqlarının pozulması ilə bağlı olub.

Avropa İnsan Hüquqları Məhkəməsi Fransanın Strasburq şəhərində yerləşən beynəlxalq məhkəmədir. O, Avropa Şurasına üzv olan və İnsan Hüquqları və Əsas Azadlıqların Müdafiəsi Haqqında Konvensiyanı ratifikasiya etmiş ölkələrin bərabərhüquqlu və bərabərsaylı hakimlərindən ibarətdir. Hazırda məhkəmə hakimlərinin sayı 45 nəfərə çatır. Avropa İnsan Hüquqları Məhkəməsinin hakimləri müstəqil hakimlər kimi fəaliyyət göstərir və heç bir ölkəni təmsil etmirlər. Avropa Şurasına üzv olan bütün ölkələrin hüquqşünaslarından ibarət registr məhkəməyə daxil olan şikayət ərizələri ilə işdə ona köməklik göstərir *(onlar hüquqi katiblər də adlandırılır).* Onlar vətəndaşı olduqları ölkələr qarşısında heç bir öhdəlik daşımırlar və tam müstəqildirlər. Registrin əməkdaşları məhkəmədə nə şikayətçiləri, nə də vətəndaşı olduqları ölkələrin hökumətlərini təmsil edirlər.




Əgər Avropa Şurasına üzv olan ölkənin qeyd olunan hüquqlar və onlarla bağlı zəmanətlərdən birini və yaxud bir neçəsini pozduğu aşkar olunarsa, bu halda məhkəmə qərar çıxarır. Qərarların icrası məcburidir: ölkələr öz üzərlərinə götürdükləri öhdəliklərə əməl etməlidirlər.

Vətəndaş Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etməzdən əvvəl öz ölkəsində bütün məhkəmə araşdırmalarından istifadə etməlidir. Yəni ilkin instansiya sayılan hər hansı məhkəməyə müraciət edən şikayətçi məhkəmənin çıxardığı qərar onu təmin etmədikdə apelyasiya məhkəməsinə, buradan da narazı qaldıqda kasasiya məhkəməsinə *(Azərbaycanda bu məhkəmə Ali Məhkəmə hesab edilir)* müraciət edir. Son instansiya hesab edilən yerli məhkəmə qəti qərar çıxardıqdan sonra vətəndaş altı ay ərzində Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət ərizəsi ilə müraciət edə bilər. Bu müddət bitdikdən sonra müraciət Avropa Məhkəməsi tərəfindən qəbul edilə bilməz.

Detallara qayıdaq. Vətəndaşın işinə heç bir ödəmə olmadan baxılır. Şikayətçi ancaq öz şəxsi xərclərini ödəməlidir *(hüquqşünasın xidmət haqqı, tədqiqat və buna bənzər xərclər kimi).* Bundan başqa, şikayət ərizəsi məhkəmə tərəfindən qəbul edildəndən sonra vətəndaş hüquqi yardım üçün müraciət edə bilər. Hüquqi yardım dərhal verilmir, onunla ancaq məhkəmə araşdırmasının sonrakı mərhələsində təmin olunmaq mümkündür. Araşdırma yazılı şəkildə aparılır. Buna görə də məhkəmədə adətən dinləmələr olmur və məhkəmə tərəfindən verilən hər hansı qərar haqqında şikayətçiyə yazılı şəkildə məlumat verilir.

**Sevinc TELMANQIZI**

# YENİ MÜSAVAT

Son səhifə

*N 190 (5899) 30 iyul 2014*




THE WHITE HOUSE
WASHINGTON

Jesse –
Thanks for the letter and your inspirational story. The best advice I can give you right now: Finish your education, and find the best organization that you can find that's helping the homeless – then start working with them, even if it's just an an in... or volunteer at first. That will give you the best foundation for achieving your dream.

## Obamanın məktubunu satışa çıxardı

Amerikalı tələbə Cessi Qreyncer ABŞ prezidenti Barak Obamadan aldığı məktubu satışa çıxarıb. Bu barədə lenta.ru saytı "New York Post"a istinadən xəbər verib. Hələ 2011-ci ildə Qreyncer Obamaya məktubunda öz həyatından bəhs edib. Yeniyetmənin sözlərinə görə, o, 13 yaşı olanda analığının ölməsi ilə yetim qalıb. 4 il ərzində xeyli ailə onu övladlığa götürüb. Alkoqol, narkoman, evsizlərin arasında, daim təzyiq, fiziki işgəncə altında yaşamaqdan bezən Cessi öz müstəqil həyatını qurmağa cəhd edib: "17 yaşım tamam olanda çantamı da götürüb evdən çıxdım. Çantamda xeyli kitab, xüsusən də anamın bağışladığı Bibliya vardı. Səyahətə çıxdım və bu, mənim həyatımı dəyişdirdi" - bunu Qreyncer Obamaya məktubunda yazıb.

Cənubi Korolinada yaxşı bir ailəyə düşən gənc onların sayəsində kolleci bitirib. Universitetə qəbul olanda isə məlum olub ki, təhsili üçün 10 min dollar məbləğində pul çatmır. Öz məktubunda Obamadan onun təhsil arzusunu gerçəkləşdirməyi xahiş edən gənc gözlədiyi cavabı da alıb: "Mənim sənə verə biləcəyim ən yaxşı məsləhət - təhsilini bitir. Mən səninlə qürur duyuram".

İndi isə aradan 3 il keçib və gənc yenidən təhsil xərclərini ödəyə bilmək üçün Obamanın bu məktubunu satışa çıxarıb. 9.5 min dolları olanlar Obamanın öz xətti ilə yazdığı bu məktubun sahibi ola bilər.

## İnsanlar təqaüd yaşında xoşbəxtliyə çatır

Amerikalı psixoloqlar bugünlərdə 2185 nəfər arasında sorğu keçirərək onların xəyal qırıqlıqları ilə bağlı maraqlı nəticə əldə edib. Məlum olub ki, insanlar arasında evliliklərinə görə 12 faiz, sahib olduqları uşağa görə 14 faiz xəyal qırıqlığı keçirir. Araşdırmada ortaya çıxan ən yaxşı nəticə odur ki, yaş irəlilədikcə həyat gözəlləşir. Rəyi soruşulanların 48 faizi həyatlarının "xəyal etdiklərindən" daha pis olduğunu söyləyib. Bunların arasında təqaüdçü olanların 26 faizi isə deyib ki, təqaüdə çıxanda hər şey daha gözəl olur. Onlar təqaüd dövründə daha yaxşı həyat təcrübələri əldə etdiklərini, daha çox gəzdiklərini və daha çox insanla tanış olduqlarını deyib. Sorğuda iştirak edənlərin



58 faizi uşaq sahibi olmağı həyatda zənginliyin açarı olaraq gördüklərini deyib. Zənginliyin açarı olaraq ikinci sırada evlilik, üçüncü sırada bir ev sahibi olmaq, yaxşı bir iş və yoldaşlarla ictimai fəaliyyətlər dayanır.

## Bu divanda 2500 nəfər otura bilər

Saratovda uzunluğu 1006,61 metr olan divan hazırlayıblar. Divan bununla da dünya rekordu qazanıb. "Rekordmen" divanı izləmək üçün 15 min nəfər gəlib ki, onların arasında Ginnesin "Rekordlar kitabı"nın nümayəndəsi də olub. Mebelin uzunluğu onun üstündə 2.5 min qonağın oturmasına imkan verir. "Rekordlar kitabı"nın hakimi Anna Orford divanın uzunluğunu ekspertlərin köməyi ilə müəyyənləşdirəndən sonra onu yeni rekord elan edib və tədbirin təşkilatçılarına bununla bağlı müvafiq sənədi təqdim edib. Divanın hazırlanmasına 7.5 kilometr qırmızı eko dəri istifadə edilib. Dəri hissələri bir-birinə əlavə edilib, kənarları isə birləşdirilib. Bu təşəbbüsün müəllifi Rusiyanın nəhəng mebel firmalarından biri olub. Kampaniyanın təmsilçiləri bildiriblər ki, divanı 500 hissəyə bölüb satışa çıxarmaq barədə qərar qəbul edilib. Divanın cəmi 10 faizi xeyriyyə məqsədilə hansısa quruma veriləcək.

Ginnesin "Rekordlar kitabı"nda "ən uzun divan" statusunu uzunluğu 890 metr olan bir Norveç firmasının hazırladığı divan qazanmışdı.






## Uşaqlarını maşının baqajında saxlayırlar

Pensilvaniya ştatından olan cütlük oğullarının qaranlıq qorxusunu onu maşının baqajında saxlamaqla "müalicə" etməyə çalışıblar. "Reuters"in xəbərinə görə, Lenxart soyadlı ailə uşaqlarını konfetlə şirnikləndirərək maşının baqajına qoyub. Bu hadisə düz 3 dəfə, attraksion parkına gedərkən baş verib. Lenxartların bu tərbiyəvi üsulları barədə polisə niktofobiyadan əziyyət çəkən oğlanın böyük qardaşı məlumat verib. Bundan sonra ailənin himayəsində olan uşaqları baxmaları üçün yaxın qohumlarına veriblər. Valideynlərə qarşı isə uşağın həyatını təhlükə altında qoyduğu üçün cinayət işi açılıb.

Məhkəmədə Cefri və Daniyel Lenxart bildirib ki, uşaqlarına baqajda qorxmaması üçün əl fənəri veriblər və evdən parka qədər məsafə də 15 kilometr təşkil edibmiş. Valideynlər etdiklərindən peşman olduqlarını bildiriblər. Hakim onların psixoterapiya kurslarına getmələri barədə qərar verib və 2 il şərti azadlıqdan məhrum etmə ilə cəzalandırıb. Yaxın günlərdə hər iki uşaq valideynlərinin yanına qaytarılacaq.

## Qoroskop






**QOÇ** - O qədər də uğurlu təqvim deyil. Ətrafınızda olan şəxslərlə aranızda anlaşılmazlıqlar yaranmaması üçün maksimum ehtiyatlılıq nümayiş etdirin. Səhhətinizə diqqəti artırın.



**BUĞA** - Astroloji göstəricilər qeyri-adi addım atmağınızı məqsədəuyğun hesab etmir. Daha çox neytral mövqedə durmalı, gündəlik qayğılarınızla məşğul olmalısınız. Qəfil iş tutmayın.



**ƏKİZLƏR** - Şəxsi işlərinizdə əsaslı dönüş gözlənilir. Buna hazır olduğunuz təqdirdə ulduzlar müdafiənizdə duracaq. Uzaq məsafələrə aldığınız dəvətlərdən bacardığınız qədər imtina etməyin.



**XƏRÇƏNG** - Giley-güzarı bir tərəfə atın, təcrübə göstərir ki, bunun heç bir səmərəsi olmur. Sevgi-ailə istiqamətində mülayimlik nümayiş etdirin. Qanqaraldıcı addımlardan uzaq olmağa çalışın.



**ŞİR** - Ulduzlar bu təqvimdə yeganə probleminizin maliyyə məsələləri ilə bağlı olacağını xəbər verir. Odur ki, bəri başdan buna hazır olun. İş yerində rəhbərliklə mülayim davranın.



**QIZ** - Dünəndən Ay bürcünüzdə olduğu üçün ciddi planlarınızı təxirə salın, istənilən mübahisələrdən uzaq olun. Əgər kiminləsə "haqq-hesab"ınız varsa, bunu başqa vaxta saxlayın.



**TƏRƏZİ** - İyulun ən uğurlu gününü yaşayacaqsınız. Qarşılıqlı münasibətlərdən tutmuş fəaliyyət zəmininə qədər bütün proseslər xeyrinizə olacaq. Yeni təklif alsanız, imtina etməyin.



**ƏQRƏB** - Ailə zəminində mübahisələriniz gözlənilir. Bu səbəbdən də hər xırda xoşagəlməzliyi ciddi problemə çevirməməlisiniz. Fəaliyyətlə bağlı riskli hərəkətlərə yol verməyin. Bəxtinizdə pul var.



**OXATAN** - Maraqlı səfərlərə çıxmaq üçün Göy qübbəsi sizə şans verəcək. Maddi imkanınız buna yetdiyi təqdirdə imtina etməyin. Bu ərəfədə fəaliyyətə bir qədər ara verməyiniz məsləhət görülür.



**OĞLAQ** - İşgüzar əlaqələrinizi dərinləşdirməklə qarşınızda duran vəzifələri layiqincə yerinə yetirə bilərsiniz. Tələsik qərar verməyin. Gümanınız gələn hər kəsdən məsləhət almağa çalışın.



**SUTÖKƏN** - Təxminən saat 13-ə qədər bütün ciddi işlərinizin həllini təxirə salmalısınız. Əks təqdirdə, cəhdləriniz boşa çıxacaq. Sonrakı saatlarda isə perspektivli təkliflər alacaqsınız.



**BALIQLAR** - Bəxtinizdə uğurlu ərəfə durur. Bəzi xırda xoşagəlməzliklər olsa da, situasiyaların nəticəsi zövqünüzə uyğun tərzdə cərəyan edəcək. Yay istirahətinə də vaxt ayırın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Atı məhkəmə nəzarətçilərinə verməmək üçün kəsib yedi



Novosibirskin Karasuks rayonunda yaşayan bir kişi Orlik ləqəbli atını yeyib. Buna səbəb kişinin öz atını məhkəmə nəzarətçilərinə vermək istəməməsi olub. Daha öncə məhkəmə tərəfindən ata həbs qoyulubmuş. Novosibirsk sakini 18 min rubl məbləğində olan borcunu ödəyə bilmədiyi üçün bu aqibətlə üzləşib. Atı borcunu ödəyənə qədər sahibinin yanında saxlamağa icazə veriblər. Amma sonuncu dəfə adı açıqlanmayan at sahibinin yanına gələn məhkəmə nəzarətçiləri sonuncunun "atı kəsib yemişəm" etirafı ilə qarşılaşıblar. Qanunlar heyvan sahibinə qarşı cinayət işi açılmasına və həbs olunmasına imkan verir. Son məlumatlara görə, sahibi son nəticədə borcunu ödəyib. Amma onun heyvanı kəsib yeməsi 2 ilə qədər azadlıqdan məhrum olunması ilə nəticələnə bilər. Sahibi isə etiraf edib ki, o, sevimli atını borc ucbatından məhkəmə nəzarətçilərinə vermək əvəzinə onu kəsib yeməyi tərcih edib.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 10.565